10 il

# İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ


İQTİSADİYYATI
GÜCLÜ OLAN DÖVLƏT
HƏR ŞEYƏ QADİRDİR.
Heydər Əliyev
Ümummilli lider


“
ARTIQ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİ DÜNYADA ÖZÜNÜ TƏSDİQLƏYİB.
”
İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

“

**... ELM, TEXNOLOGİYA VƏ İNNOVASİYA DÜNYADA CƏMİYYƏTLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ APARICI QÜVVƏSİDİR.**

”

***Mehriban Əliyeva***
*Azərbaycan Respublikasının*
*Birinci vitse-prezidenti*



İcmalın
# mündəricatı

## MƏRKƏZ HAQQINDA


İcraçı direktordan məktub 9
Mərkəzin fəaliyyət istiqamətləri 10
Mərkəzin strukturu 11
Mərkəz rəqəmlərlə 12
Mərkəzin mükafatları 14
Mərkəz fotolarda 16


## MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİ


Monitorinq və qiymətləndirmə üzrə rəqəmsal platformalar 25
İcra olunan dövlət proqramları 26
İcrası başa çatmış dövlət proqramları 48
“Layihə idarəetməsi” modulu 49
Qiymət izləmə tətbiqi 50
Monitorinq və qiymətləndirmə fəaliyyəti fotolarda 51
Strateji Yol Xəritələri 61
Strateji Yol Xəritələri fotolarda 63


## MAKROİQTİSADİ TƏHLİL VƏ PROQNOZ


“EconLAB” iqtisadi təhlil laboratoriyası 67
İqtisadi laboratoriyada qurulmuş modellərin siyahısı 67
Dünya İqtisadi Forumu (WEF) Süni Zəka Platforması 69


## BİZNES MÜHİTİ


“Azranking” portalı 71
Dünya Bankının “Doing Business” hesabatı 72
Biznes mühiti fotolarda 74


## NƏŞRLƏR


Kitablar 77
İcmallar 77
Nəşrlər fotolarda 80


## MƏRKƏZİN İNNOVATİV LAYİHƏLƏRİ


“Azexport” portalı 86
“Enterprise Azerbaijan” portalı 88
“Startup School” layihələri 89
“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi 92
Rəqəmsal Ticarət Qovşağı 94
İnnovativ layihələr fotolarda 96

İcmalın
# məndəricatı

## TÜRK DÜNYASI ARAŞDIRMALAR MƏRKƏZİ


Türk Dünyası Araşdırmalar Mərkəzinin əsas fəaliyyət istiqamətləri 103

Türk Dünyası Araşdırmalar Mərkəzi nəşrlərdə 104

Türk Dünyası Araşdırmalar Mərkəzi fotolarda 105


## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ


Memorandumlar 109

Xarici səfərlər 110

Beynəlqxalq əməkdaşlıq fotolarda 111


## KOMMUNİKASİYA FƏALİYYƏTİ


Sosial media hesabları 117

KİV ilə əməkdaşlıq 117

İslahatların kommunikasiyası fotolarda 118


## İNSAN KAPİTALI


Əməkdaşların elmi-tədqiqat fəaliyyəti 123

İslahat könüllüləri 123

İnsan kapitalı fotolarda 124

# Mərkəz haqqında

1

İcraçı direktordan
# Məktub



**_Vüsal Qasımlı_**
*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor*

Prezident İlham Əliyevin strateji idarəetmə siyasətinə uyğun olaraq yaradılmış İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) 10 illik yubileyini ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycan Respublikasında qeyd etməkdən qürur duyuruq.

Ötən 10 il ərzində İİTKM 40-dan çox dövlət proqramının monitorinq və qiymətləndirilməsini həyata keçirərək "böyük verilənlər bazası" formalaşdırıb və data-əsaslı idarəetmə modelinin tətbiqinə mühüm töhfə verib. Nəticəəsaslı büdcə, ortamüddətli xərclər çərçivəsi, proqram və layihə idarəetməsi sahəsində aparılan islahatlar Mərkəzin dövlət idarəetməsindəki strateji rolunu daha da möhkəmləndirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın ən çox islahat aparan ölkələr sırasında yer alaraq 190 ölkə arasında 25-ci pilləyədək yüksəlməsi ən yeni iqtisadi tariximizin mühüm nailiyyətlərindəndir.

İİTKM qlobal miqyasda Birləşmiş Millətlər Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Asiya İnkişaf Bankı kimi nüfuzlu təşkilatlarla əməkdaşlıq edir, "Böyük İyirmilik" (G20) və "Böyük Yeddilik" (G7) ölkələrinin beyin mərkəzləri platformalarında təmsil olunur, Asiya və Türk dünyası beyin mərkəzləri şəbəkələrinin inkişafında fəal iştirak edir. Mərkəzin qazandığı çoxsaylı beynəlxalq mükafatlar sırasında Dünya Əqli Mülkiyyət Təşkilatının (WIPO) "Əqli mülkiyyət sahəsində ən yaxşı müəssisə" mükafatı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Azərbaycanda iqtisadi islahatların idarə edilməsi modelini nümunəvi innovativ təcrübə kimi qiymətləndirməsi xüsusi əhəmiyyət kəsb edir.

Son 10 ildə "Web of Science" və "Scopus" bazalarında indekslənmiş nəşrlərimiz, 30 kitab və 840 icmal İİTKM-in beyin mərkəzi kimi məhsuldar fəaliyyətinin göstəricisidir.

"Azexport" portalı "Amazon", "Alibaba Group" və "eBay" kimi qlobal platformalarla əməkdaşlıq quraraq Asiyada ən yaxşı e-ticarət platformalarından biri kimi qiymətləndirilib. Azərbaycanın startap ekosisteminin aparıcı platformasına çevrilmiş "Enterprise Azerbaijan" portalı dörd startap məktəbi ("Startup School" layihələri)  təşkil edib. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə 1,5 milyard ABŞ dollarından artıq qeyri-neft ixracı reallaşdırıb. Rəqəmsal Ticarət Qovşağı isə dünyada ilk dəfə olaraq m-rezidentlik xidmətini təqdim edib.

Qüdrətli dövlət, rəqabətqabiliyyətli iqtisadiyyat və yüksək sosial rifahın qurulmasına töhfə vermək bundan sonra da əsas məqsədimiz olaraq qalır.

# Mərkəz haqqında

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 879 nömrəli Fərmanı ilə yaradılıb.

Mərkəzin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqdır. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzunmüddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil edir.

2016-2025-ci illər ərzində Mərkəz Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları ilə verilən tapşırıqları 100 faiz icra edib.

**TAPŞIRIQLARIN**
**100%**
**İCRASI**



## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

- Dövlət proqramlarının və strategiyaların monitorinqini və qiymətləndirilməsini aparır.
- İcra müddəti bitmiş dövlət proqramlarının və dövlət investisiya layihələrinin iqtisadi səmərəsini qiymətləndirir.
- Dövlət proqramlarının və strategiyaların, iqtisadi təşviq layihələrinin texniki-iqtisadi əsaslandırılmasını və risk təhlilini aparır, həmin layihələrlə bağlı maraqlı şəxslər arasında sorğular keçirir.
- Qlobal iqtisadi çağırışlara uyğun olaraq ölkənin iqtisadi inkişaf strategiyasının təhlilini, həmin strategiyanın iqtisadi və digər aspektlərinin ekspertizasını həyata keçirir və onların səmərəli tətbiqi üsulları barədə təkliflər hazırlayır.
- Yerli və xarici biznes subyektlərinin iştirakı ilə müvafiq təşviqedici kampaniyaların keçirilməsi yolu ilə onların aparılan islahatlar prosesində yaxından iştirakını və bu sahədə aidiyyəti dövlət orqanları ilə əməkdaşlığını təmin edir.
- Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi baxımından Azərbaycanın xaricdə müsbət imicinin formalaşdırılması məqsədilə qlobal media qurumlarında müxtəlif materiallar yayır, təbliğat-təşviqat kampaniyaları keçirir, aparılan iqtisadi islahatların beynəlxalq səviyyədə lobbiləşdirilməsini, müxtəlif sahələr üzrə xarici investorlarla birgə işçi qrupların fəaliyyətini təşkil edir və əlaqələndirir.
- Həyata keçirilən iqtisadi islahatların məzmunu və mahiyyəti, islahatların sahibkarlıq fəaliyyəti, investisiya mühiti və ümumilikdə iqtisadiyyat üçün üstünlükləri və verəcəyi səmərələr barədə sahibkarların və ictimaiyyətin məlumatlandırılmasını təmin edir.

# Mərkəzin **strukturu**

## MÜŞAHİDƏ ŞURASI

**Müşahidə Şurasının sədri**
Azərbaycan Respublikasının Baş naziri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Azərbaycan Respublikasının iqtisadiyyat naziri

Azərbaycan Respublikasının maliyyə naziri

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru

## RƏHBƏRLİK

Mərkəzin icraçı direktoru
İcraçı direktorun müavinləri
İcraçı direktorun müşavirləri

## ŞÖBƏLƏR

Monitorinq və qiymətləndirmə şöbəsi
İqtisadi təhlil şöbəsi
Dövlət proqramları şöbəsi
Starteji planlaşdırma şöbəsi
İctimaiyyətlə əlaqələr şöbəsi
İnnovasiya şöbəsi
Əməliyyatlar şöbəsi

## MƏRKƏZİN TABELİYİNDƏKİ PORTALLAR

“Azexport” portalı
Rəqəmsal Ticarət Qovşağı (RTQ)
“Enterprise Azerbaijan” portalı

## MƏRKƏZİN TABELİYİNDƏKİ QURUMLAR

Türk Dünyası Araşdırmalar Mərkəzi
"Bir Pəncərə" İxraca Dəstək Mərkəzi

**“Qüdrətli dövlət, rəqabətqabiliyyətli iqtisadiyyat və yüksək sosial rifahın qurulmasına töhfə vermək bundan sonra da əsas məqsədimiz olaraq qalır.”**

***Prof.Dr. Vüsal Qasımlı***
*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru*

# Mərkəz rəqəmlərlə

## Monitorinq və qiymətləndirmə fəaliyyəti

DÖVLƏT PROQRAMLARI
**40+**

HESABAT
**126**

TƏDBİRLƏR PLANI
**100+**

İNDİKATİV PLANLAMA ÜZRƏ GÖRÜŞLƏR
**260+**

TƏLİMLƏRDƏ İŞTİRAK EDƏN DÖVLƏT QURUMLARININ NÜMAYƏNDƏLƏRİ
**200+**

MONİTORİNQ ÜZRƏ GÖRÜŞLƏR
**600+**

RƏQƏMSAL PLATFORMA
**5**

“LAYİHƏ İDARƏETMƏSİ” MODULUNDA QİYMƏTLƏNDİRİLƏN LAYİHƏLƏR
**≈1500**

## İqtisadi təhlil fəaliyyəti

İQTİSADİ-RİYAZİ MODEL: ECONLAB
**8**

## Elektron mövcudluq

İNTERNET RESURSU
**20+**

## Qiymət izləmə tətbiqi (QİT)

**bir**
PLATFORMA

## Beynəlxalq əməkdaşlıq

**XARİCİ SƏFƏRLƏR**
**20+** ÖLKƏ



**70+**
BEYNƏLXALQ TƏDBİRLƏRDƏ TƏQDİMAT

**15**
BEYNƏLXALQ MÜKAFATLARLAR

## "EnterpriseAzerbaijan" portalı

**23**
ÖLKƏ

**650**
STARTAP LAYİHƏSİ

## "Azexport" portalı

**3 200**
İXRAC SİFARİŞİ

**762** ƏDƏD
SƏRBƏST SATIŞ SERTİFİKATI

## Nəşrlər

**30**
KİTABLAR

**840+**
İCMALLAR

## "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi

**1.5** MLRD. $
QEYRİ-NEFT MƏHSULLARININ İXRACI




- İXRAC İCMALI
- İSLAHAT İCMALI
- VIDEOİCMAL
- HƏFTƏLİK İCMAL
- TÜRK İQTİSADİ İCMALI
- NƏQLİYYAT İCMALI
- İQTİSADİ İSLAHATLAR JURNALI

# Mərkəzin **mükafatları**

WORLD ECONOMIC MAGAZINE

Global Business Outlook

INTERNATIONAL BUSINESS MAGAZINE

BRM AWARD WINNERS 2025

INTERNATIONAL FINANCE

WORLD BUSINESS OUTLOOK

acquisition international — the voice of modern business - est.2010

### BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ

**INTERNATIONAL BUSINESS MAGAZINE AWARDS, 2026**

Milli analitik mərkəz - mükəmməllik mükafatı

Milli islahatlara dəstək üzrə ən yaxşı tədqiqat qurumu mükafatı

### BÖYÜK BRİTANİYA

**INTERNATIONAL FINANCE AWARDS 2025**

Ən yaxşı dövlət beyin mərkəzi və tədqiqat institutu

### BÖYÜK BRİTANİYA

**GLOBAL EXCELLENCE AWARDS 2025**

“Azexport” portalı Cənubi Qafqazın ən yaxşı milli elektron ticarət platforması

### BÖYÜK BRİTANİYA

**INTERNATIONAL FINANCE AWARDS 2025**

İqtisadi islahatlar üzrə ən yaxşı ictimai əlaqə platforması

### AZƏRBAYCAN

**IDDA AWARDS**

“İlin Ekosistem Oyunçusu” nominasiyası üzrə mükafat

### YAPONİYA

**ASIAN THINK TANK NETWORK FORUM 2025**

“Azexport” portalı Asiya regionunda 15 ən yaxşı nümunədən biri seçilib

### ABŞ

**GLOBAL BUSINESS & FINANCE MAGAZINE**

Rəqəmsal idarəetmə mükəmməlliyi: Süni intellektə əsaslanan monitorinq, qiymətləndirmə və məlumat sistemləri, Azərbaycan 2025

### BÖYÜK BRİTANİYA

**NON-PROFIT ORGANISATION AWARDS 2025**

Məlumat-əsaslı İdarəçilik üzrə İnnovasiya Mükəmməlliyi Mükafatı 2025,

Qeyri-Kommersiya Fəaliyyətində Sədaqət və Dürüstlük üzrə Mükəmməllik Mükafatı 2025

GLOBAL BUSINESS & FINANCE MAGAZINE

ASIAN DEVELOPMENT BANK

GLOBAL BRAND AWARDS

WIPO WORLD INTELLECTUAL PROPERTY ORGANIZATION

OECD

IDDA AWARDS

## BÖYÜK BRİTANİYA

### BRANDS REVIEW MAGAZINE AWARDS 2025

Ağıllı Monitorinq və Qiymətləndirmə Sistemi: 2025 Azərbaycan üçün süni intellektə hazır məlumat idarəetmə innovasiyası

## FRANSA

### İQTİSADİ İSLAHATLARIN İDARƏ EDİLMƏSİ MODELİ

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı Azərbaycanın "İqtisadi islahatların idarə edilməsi modeli"ni qlobal miqyasda nümunəvi innovativ təcrübə olaraq rəsmi platformasında göstərib

## BÖYÜK BRİTANİYA

### GLOBAL BUSINESS OUTLOOK AWARDS 2025

Ən İnnovativ Monitorinq və Qiymətləndirmə Təşəbbüsü – Böyük Qayıdış, Azərbaycan 2025

## ABŞ

### WORLD ECONOMIC MAGAZINE AWARDS 2025

Ağıllı Monitorinq və Qiymətləndirmə üzrə Mükəmməllik Mükafatı, Azərbaycan 2025

## BÖYÜK BRİTANİYA

### GLOBAL BRANDS MAGAZINE

Məlumatlara Əsaslanan İdarəetmədə Mükəmməllik

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ

### INTERNATIONAL BUSINESS MAGAZINE AWARDS, 2025

Məlumatlara Əsaslanan Ən Yaxşı Proqram İdarəetməsi Təşəbbüsü, Azərbaycan 2025 | Məlumatlara Əsaslanan Ən Yaxşı Layihə İdarəetməsi, Azərbaycan 2025

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ

### WORLD BUSINESS ANNUAL AWARDS 2025

Milli Strategiyanın İzlənməsi Üçün Ən Yaxşı Rəqəmsal Platforma, Azərbaycan 2025

## WIPO

### ƏQLİ MÜLKİYYƏT SAHƏSİNDƏ ƏN YAXŞI MÜƏSSİSƏ

Ümumdünya Əqli Mülkiyyət Agentliyinin təsis etdiyi "Əqli mülkiyyət sahəsində ən yaxşı müəssisə (WIPO IP Enterprise Trophy)" mükafatının nominantı olub

## ABŞ

### WSIS 2018

Azərbaycanın Rəqəmsal Ticarət Qovşağını mötəbər İKT mükafatı olan "WSIS 2018" namizədləri arasına daxil edib

## AZƏRBAYCAN

### İLİN İNNOVATİV PLATFORMASI

Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı "İlin innovativ platforması" mükafatına layiq görülüb

Mərkəz
# fotolarda




*İqtisadi Şuranın iclası*
*30 yanvar 2026*




*"Azərbaycan Rəqabətlilik Forumu"*
*7 sentyabr 2018*




*Brüsseldə "Orta Dəhliz" kitabının təqdimatı*
*25 noyabr 2025*



*"Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusunda konfrans*
*07 mart 2024*

# Mərkəz **fotolarda**




*"Rəqəmsal erada gənclər üçün imkanlar" konfransı*
*21 sentyabr 2018*




*"FİF 18 – Finance and İnvestment" forumu*
*5 may 2018*




*İİTKM və "Microsoft Azərbaycan" şirkəti arasında memorandumun imzalanması*
*17 yanvar 2017*



*"2020 İxraca Dəstək" təlimləri*
*14.02.2020*




*İşğal dövründə Ermənistanın Azərbaycana vurduğu zərər və Vətən müharibəsində Ermənistanın itkilərinə dair mətbuat konfransı*
*30 oktyabr 2020*




*İİTKM "International Finance" tərəfindən iki nüfuzlu mükafata layiq görülüb*
*18 noyabr 2025*



*Rəqəmsal Ticarət Qovşağı tərəfindən dünyada ilk dəfə qeyri-rezidentə — İSESCO-nun baş direktoru Osman Əl Tuveycriyə mobil imzanın təqdim olunması*
*24 oktyabr 2018*

# Mərkəz
# fotolarda




*"İqtisadi islahatlar: Əldə edilmiş nəticələr və tövsiyələr" konfransı*
*30 may 2017*




*İİTKM və ABŞ-ın Beynəlxalq Anlaşma üçün İşgüzar Şurası (BCIU) arasında əməkdaşlığa dair memorandumun imzalanması*
*7 sentyabr 2018*




*İİTKM-in tərəfdaşı olduğu "IV Beynəlxalq Bankçılıq Forumu"*
*6-7 noyabr 2019*




*FINTEX SUMMIT 2023*
*13 iyun 2023*

# Mərkəz **fotolarda**




*IX Beynəlxalq Bankçılıq Forumu*
*19 noyabr 2025*



*Monitorinq və qiymətləndirmə portalının təqdimatı*
*25 oktyabr 2019*




*“Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli” konfransı*
*3 noyabr 2022*



*“Prezident İlham Əliyevin rəhbərliyi ilə post-konflikt quruculuğu modeli” konfransı*
*3 noyabr 2022*

# Mərkəz **fotolarda**



*AMEA ilə İİTKM arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə memorandumun imzalanma mərasimi*
*16 noyabr 2016*




*“Dövlət-Biznes Dialoqu Platforması və Biznes mühti və beynəlxalq reytinqlər üzrə Komissiya”nın Portalının təqdimatı*
*5 aprel 2019*

# Mərkəzin monitorinq və qiymətləndirmə fəaliyyəti

# 2

# Monitorinq və qiymətləndirmə
## fəaliyyəti

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi fəaliyyətə başladığı gündən etibarən ölkədə həyata keçirilən iqtisadi islahatların sistemli, ölçüləbilən və nəticəyönümlü idarə olunmasına institusional dəstək göstərən əsas qurum kimi formalaşmışdır. Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi və inkişaf etdirilməsidir.

Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamlarına uyğun olaraq, strategiyaların, dövlət proqramlarının, milli fəaliyyət planlarının, strateji yol xəritələrinin və digər mühüm siyasət sənədlərinin icrasının monitorinqi və qiymətləndirilməsi Mərkəz tərəfindən həyata keçirilir.

Mərkəzin monitorinq və qiymətləndirmə yanaşması müasir proqram idarəetməsi prinsiplərinə əsaslanır. Bu yanaşma strateji planlaşdırma, nəticəyönümlü idarəetmə, performans indikatorları sistemi, institusional hesabatlılıq və data əsaslı qərar qəbuletmə kimi komponentləri özündə birləşdirir.

**40+**

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ APARILAN

**STRATEJİ SİYASƏT SƏNƏDLƏRİ**

### MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ ÜZRƏ RƏQƏMSAL PLATFORMALAR

- monitoring.gov.az
- azerbaijan2030.gov.az
- boyukqayidish.gov.az
- mss.gov.az
- nakhchivan2027.monitoring.gov.az

DÖVLƏT QURUMLARININ

**200+**

ƏMƏKDAŞLARINA KEÇİRİLƏN

**TƏLİMLƏR**

**260+**

İNDİKATİV PLANLAŞDIRMA ÜZRƏ

**GÖRÜŞLƏR**

# 1. AZƏRBAYCAN RESPUBLİKASININ 2022–2026-CI İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASI

## MİLLİ PRİORİTETLƏR

- Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı
- İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış
- Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi"

## ƏSAS MƏQSƏDLƏR

- Dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi
- Qeyri-neft sektorunun aparıcı rola çıxarılması
- İnsan kapitalının inkişafı
- Əhalinin sosial rifahının yüksəldilməsi
- Regional balanslı inkişafın təmin olunması
- Biznes və investisiya mühitinin yaxşılaşdırılması
- Dövlət idarəetməsinin səmərəliliyinin artırılması
- İnnovasiya və rəqəmsal transformasiyanın təşviqi
- Ekoloji dayanıqlığın təmin edilməsi
- Bərpa olunan enerji mənbələrinin inkişafı

**5** MİLLİ PRİORİTET

**10** MƏQSƏD

**65** FƏALİYYƏT İSTİQAMƏTİ

**269** TƏDBİR

# 2. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNƏ BÖYÜK QAYIDIŞA DAİR I DÖVLƏT PROQRAMI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili
- Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini
- Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması
- Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması
- Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası
- Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi

## HƏDƏF GÖSTƏRİCİLƏRİ

- Ərazilərin minalardan təmizlənməsi və təhlükəsizliyin təmin edilməsi
- Yaşayış məntəqələrinin tikintisi və dayanıqlı infrastrukturun yaradılması
- Nəqliyyat, rabitə və kommunal infrastrukturun bərpası
- Təhsil, səhiyyə və sosial xidmətlərin müasir standartlara uyğun təşkili
- Məşğulluq imkanlarının genişləndirilməsi
- İnvestisiyaların cəlbi və sahibkarlıq mühitinin formalaşdırılması
- Yerli iqtisadi potensialın dövriyyəyə cəlb olunması
- Ətraf mühitin mühafizəsinin təmin edilməsi

**6**
**PRİORİTET İSTİQAMƏT**

**25**
**FƏALİYYƏT İSTİQAMƏTİ**

**306**
**TƏDBİR**

# 3. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR 2023–2027-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Əlverişli biznes mühitinin yaradılması
- Ticarətin inkişafı
- İxracyönlü sənayenin inkişafı
- Kənd təsərrüfatı məhsulları istehsalının və emalının inkişafı
- Turizmin inkişafı
- Elektrik enerjisi istehsalının və ixracının artırılması
- İnfrastruktur təminatının inkişafı
- Sosial sektorun inkişafı
- İnsan kapitalının inkişafı
- İnstitusional inkişaf
- Ətraf mühitin mühafizəsinin gücləndirilməsi

## HƏDƏF GÖSTƏRİCİLƏRİ

- Naxçıvan Muxtar Respublikasında dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması
- Regionun iqtisadi potensialının reallaşdırılması və iqtisadi artımın stimullaşdırılması
- Məşğulluq imkanlarının artırılması və əmək bazarının aktivləşdirilməsi
- Əhalinin gəlir səviyyəsinin yüksəldilməsi və rifahının yaxşılaşdırılması
- Əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial təminat mexanizmlərinin gücləndirilməsi
- Sahibkarlığın inkişafı və özəl sektorun iqtisadiyyatda rolunun artırılması
- Təbii ehtiyatlardan səmərəli və davamlı istifadə olunmasının təmin edilməsi
- Ətraf mühitin mühafizəsinin gücləndirilməsi və ekoloji tarazlığın qorunması
- İnfrastrukturun, o cümlədən nəqliyyat, enerji və kommunal xidmətlərin inkişaf etdirilməsi
- İnsan kapitalının inkişafı, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması

**11**
**PRİORİTET İSTİQAMƏT**

**81**
**TƏDBİR**

# 4. SU EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏYƏ DAİR MİLLİ STRATEGİYA

### PRİORİTETLƏR

- Su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi
- Su ehtiyatlarının effektiv idarə edilməsi
- Su ehtiyatlarından səmərəli istifadə
- Su təhlükəsizliyinin təmin edilməsi
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatları potensialından istifadə

### MƏQSƏDLƏR

- Su ehtiyatlarının yenidən qiymətləndirilməsi
- İqlim dəyişikliyinin su ehtiyatlarına təsirinin proqnozlaşdırılması
- Su mənbələri üzrə risklərin simulyasiyası və rəqəmsallaşdırılması
- Təkmil idarəetmə modelinin formalaşdırılması
- Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi
- İnvestisiyaların idarə olunması və tariflərin diferensiallaşdırılması
- İnstitusional potensialın gücləndirilməsi
- Su itkilərinin azaldılması
- Su ehtiyatlarının artırılması və alternativ su mənbələrindən istifadə
- Su infrastrukturunun genişləndirilməsi
- Sudan səmərəli istifadənin təşviq edilməsi
- Suya tələbatın ödənilməsi
- Transsərhəd və tranzit suların idarə olunmasının təkmilləşdirilməsi
- Su hövzələrinin mühafizəsinin gücləndirilməsi
- Suyun keyfiyyətinin təmin edilməsi
- İqlim dəyişikliyinə adaptasiya
- Hidroekoloji böhranların idarə edilməsi
- "Ağıllı su" sistemlərinin yaradılması
- Yerüstü suların hidroenerjisindən istifadə
- Su ehtiyatları potensialı – hövzələrarası su transferi

**5**
**PRİORİTET**

**20**
**MƏQSƏD**

**10**
**ƏSAS HƏDƏF İNDİKATORU**

**80**
**TƏDBİR**

# 5. BAKI ŞƏHƏRİNDƏ VƏ ABŞERON YARIMADASINDA SU TƏCHİZATI, YAĞIŞ VƏ TULLANTI SULARI SİSTEMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR 2026-2035-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı və dayanıqlığının təmini
- Su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini
- Su sektorunda innovasiya və rəqəmsallaşma

## FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

- Su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi
- Su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi
- Yağış suları risklərinin aradan qaldırılması
- Tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması
- Su sektorunda rəqəmsal idarəetmə və SCADA/IoT sistemlərinin tətbiqi
- Su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini

## MƏQSƏDLƏR

- Su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi
- Su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi
- Yağış suları risklərinin aradan qaldırılması
- Tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması
- Su sektorunda rəqəmsal idarəetmə, SCADA (nəzarətçi idarəetmə və məlumatların toplanması) və IoT (əşyaların interneti) sistemlərinin tətbiqi
- Su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini

**3**
**PRİORİTET İSTİQAMƏT**

**6**
**FƏALİYYƏT İSTİQAMƏTİ**

**52**
**TƏDBİR**

# 6. BAKI ŞƏHƏRİNDƏ VƏ ƏTRAF ƏRAZİLƏRDƏ NƏQLİYYAT İNFRASTRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR 2025–2030-CU İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## PRİORİTET

- Şəhər nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi

## ƏSAS İSTİQAMƏTLƏR

- Avtomobil yolları üzrə
- Metro nəqliyyatı üzrə
- Dəmiryol nəqliyyatı üzrə
- Digər kütləvi sərnişindaşıma həlləri üzrə
- Ümumi istifadədə olan avtomobil nəqliyyatı üzrə
- Piyada infrastrukturu üzrə
- Digər tədbirlər

## ƏSAS HƏDƏF İNDİKATORLARI

- Yollarda hərəkət zamanı ölümlə nəticələnən qəzaların sayının hər 100 min nəfərə 4-ə və ya daha aşağı salınması
- Hər bir şəxs üçün illik $CO_2$ emissiyası miqdarının 600 kq-dan aşağı səviyyədə saxlanması
- İctimai nəqliyyatda şəhərin müxtəlif məntəqələrinə 20 dəqiqə ərzində asan və rahat şəkildə çatma imkanının təmin olunması
- Əhalinin 500 m radiusda ictimai nəqliyyata çıxış imkanını təmin etməklə, onların nəqliyyat xidmətlərindən faydalanmasının təmin olunması
- Sərnişinlərin 40 %-nin ictimai nəqliyyat vasitəsilə daşınmasının təmin edilməsi
- Xüsusi avtobus zolaqları şəbəkəsinin uzunluğunun 160 km-ə çatdırılması
- 10 yeni metro stansiyasının tikintisi
- Fərdi mobil nəqliyyat vasitələri şəbəkəsinin uzunluğunun 100 km-ə çatdırılması

**1**
**PRİORİTET**

**7**
**ƏSAS İSTİQAMƏT**

**66**
**TƏDBİR**

# 7. HAVA DAŞIMALARI ÜZRƏ RƏSMİYYƏTİN SADƏLƏŞDİRİLMƏSİNƏ DAİR DÖVLƏT PROQRAMI



**4**

**PRİORİTET**



**14**

**TƏDBİR**

## PRİORİTETLƏR

- Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması
- Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində kadr hazırlığının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi
- Normativ hüquqi bazanın təkmilləşdirilməsi
- Dövlət Proqramının həyata keçirilməsinə cəlb edilmiş rəsmiyyətin sadələşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət orqanlarının (qurumlarının) və xidmət təminatçılarının fəaliyyətinin əlaqələndirilməsi üçün rəsmiyyətin sadələşdirilməsi üzrə birgə fəaliyyətin təşkili

## MƏQSƏDLƏR

- Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi, əməliyyatların səmərəliliyinin artırılması
- Ticarətin və turizmin inkişafına töhfə verməklə iqtisadi inkişafın və məşğulluğun artırılması
- Dövlət sərhədlərinin təhlükəsizliyinin gücləndirilməsi
- Keyfiyyətli aviasiya xidmətlərinə əlçatanlığı təmin etməklə sərnişinlərin səyahət təcrübəsinin yaxşılaşdırılması
- Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində kadr hazırlığının və beynəlxalq əməkdaşlığın genişləndirilməsi

# 8. AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏN KEÇƏN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN TRANZİT POTENSİALININ ARTIRILMASINA VƏ TRANZİT YÜKDAŞIMALARIN TƏŞVİQİNƏ DAİR 2024–2026-CI İLLƏR ÜÇÜN FƏALİYYƏT PLANI

## PRİORİTETLƏR

- Fiziki infrastrukturun təkmilləşdirilməsi
- Koordinasiya işinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi
- Normativ hüquqi bazanın təkmilləşdirilməsi

**3**
**PRİORİTET**

## MƏQSƏDLƏR

- Mövcud nəqliyyat infrastrukturunun yükötürmə qabiliyyətinin artırılması
- Tranzit əməliyyatlar zamanı Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd, gömrük, o cümlədən nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə sürətli keçidin təmin edilməsi
- Tranzit yükdaşımalar üzrə əməliyyatların optimallaşdırılması üçün yüksək texnologiyaların və innovativ həllərin tətbiqi
- Tranzit daşımalar zamanı dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi
- Müvafiq sahə üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi
- Tranzit yüklərin daşınması sahəsində fəaliyyət göstərən dövlət orqanları (qurumları) ilə operator və daşıyıcılar arasında əlaqələndirmənin gücləndirilməsi
- Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərindən aktiv istifadənin təşviqi

**24**
**TƏDBİR**

# 9. AZƏRBAYCAN RESPUBLİKASININ 2025–2028-Cİ İLLƏR ÜÇÜN SÜNİ İNTELLEKT STRATEGİYASI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi
- Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi
- Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi
- Əlverişli biznes mühitinin yaradılması

## MƏQSƏDLƏR

- Süni intellekt sənayesinin inkişafı, davamlılığı və rəqabət qabiliyyətinin təmin edilməsi
- Süni intellekt sahəsində ixtisaslı və bacarıqlı kadr potensialının formalaşdırılması
- Dövlət idarəetməsində süni intellektin tətbiqi ilə qərarvermə, səmərəlilik, şəffaflıq və xidmət keyfiyyətinin artırılması
- Yerli və beynəlxalq bazar tələblərinə uyğun regional süni intellekt təlim və istedad mərkəzlərinin yaradılması
- Süni intellekt üçün məlumat mərkəzlərinin və hesablama resurslarının genişləndirilməsi
- Yüksək performanslı hesablama (HPC) infrastrukturunun inkişaf etdirilməsi
- Süni intellekt üzrə hüquqi və etik çərçivənin formalaşdırılması
- Süni intellekt sistemlərində qlobal standartların tətbiqinin təmin edilməsi
- Süni intellekt tədqiqatı və tətbiqi üçün sektorlararası əməkdaşlığın gücləndirilməsi
- Süni intellektdən məsuliyyətli istifadə və məlumatların məxfiliyinin qorunması
- Süni intellektdə qərəzli istifadənin və ictimai maraqlara zidd tətbiqlərin qarşısının alınması
- İnnovativ həllərin tətbiqi zamanı risklərin və zərərlərin minimallaşdırılması
- Milli və informasiya təhlükəsizliyinin qorunması, dezinformasiyaya qarşı mübarizə və etibarlı süni intellekt alətlərinin inkişafı.

**4**
**PRİORİTET İSTİQAMƏT**

**13**
**MƏQSƏD**

**15**
**TƏDBİR**

# 10. AZƏRBAYCAN RESPUBLİKASINDA QİDA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNƏ DAİR 2019–2025-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## ƏSAS İSTİQAMƏTLƏR

- Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, qida təhlükəsizliyi ilə bağlı milli normativ hüquqi bazanın təkmilləşdirilməsi
- Qida təhlükəsizliyinın təmin edilməsi istiqamətində infrastruktur təminatının yaxşılaşdırılması
- Qida təhlükəsizliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi
- Qida təhlükəsizliyi sahəsində elmi sübutlara əsaslanan və beynəlxalq tələblərə cavab verən risklərin təhlili sisteminin formalaşdırılması
- Qida təhlükəsizliyinin təmin edilməsi üçün müasir tələblərə cavab verən qeydiyyat, təsdiq və sertifikatlaşdırma sisteminin qurulması və bu sahədə bir pəncərə prinsipinin tətbiqi
- Qida təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması
- Heyvan sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması
- Bitki sağlamlığına nəzarət üzrə effektiv və müasir tələblərə cavab verən sistemin yaradılması
- Qida təhlükəsizliyinin təmin olunması istiqamətində dövlət-özəl sektor əməkdaşlığının inkişaf etdirilməsi
- Qida təhlükəsizliyi sahəsində müasir texnologiyaların və innovativ həllərin tətbiqi
- Qida təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi
- Qida təhlükəsizliyi ilə bağlı əhalinin maarifləndirilməsi, sağlam qidalanmanın təşviqi və istehlakçı hüquqlarının qorunması

**12**
**ƏSAS İSTİQAMƏT**

**8**
**MƏQSƏD**

**71**
**TƏDBİR**

# 11. AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL XİDMƏTİN İNKİŞAFINA DAİR 2023–2026-CI İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## PRİORİTETLƏR

- Sosial xidmət sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və sosial xidmət göstərilməsinə nəzarət mexanizminin müəyyən edilməsi
- Sosial xidmət sahəsində həyata keçirilən tədbirlərin effektivliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında əlaqələrin genişləndirilməsi
- Sosial xidmət müəssisələrinin fəaliyyətinin təşkili və maddi-texniki bazasının təkmilləşdirilməsi
- Mütərəqqi beynəlxalq təcrübənin tətbiqi ilə sosial xidmət sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi
- Uşaqların alternativ qayğı xidmətləri ilə əhatə olunması imkanlarının genişləndirilməsi
- Sosial xidmətlərin təşkilində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın davam etdirilməsi, sosial xidmət sahəsində dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi
- Sosial xidmət sistemində insan resurslarının inkişafı və təminatı

## HƏDƏF GÖSTƏRİCİLƏRİ

- Hamı üçün bərabər iştirak imkanını təmin edən sosial xidmətlər sisteminin formalaşması
- Çətin həyat şəraitində olan şəxslərə göstərilən sosial xidmətin əhatəsinin genişlənməsi və əhalinin göstərilən xidmətlərdən məmnunluq səviyyəsinin artması
- Sosial xidmətlərin ünvanlılığının və keyfiyyətli xidmətlərə əlçatanlığın təmin edilməsi
- Sosial xidmət sahəsində ixtisaslı kadr potensialının formalaşması

**7**
**PRİORİTET**

**7**
**MƏQSƏD**

**21**
**TƏDBİR**

# 12. 2019–2030-CU İLLƏR ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ MƏŞĞULLUQ STRATEGİYASI

## PRİORİTETLƏR

- Əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi
- İşçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi
- Aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi və səmərəliliyinin artırılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının gücləndirilməsi
- Sosial dialoqun inkişaf etdirilməsi və qeyri-formal əmək münasibətlərinin qarşısının alınması
- Əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi

## MƏQSƏDLƏR

- Məşğulluq siyasətinin ekstensiv mərhələdən intensiv mərhələyə keçidini təmin etmək
- Əhalinin məşğulluq səviyyəsini artırmaq
- Tam məşğulluğu təmin etmək
- Layiqli əməyi dəstəkləmək
- Əmək məhsuldarlığını yüksəltmək

**5**
**PRİORİTET**

**52**
**TƏDBİR**

**143**
**ALT TƏDBİR**

# 13. AZƏRBAYCAN RESPUBLİKASININ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ 2024–2026-CI İLLƏRDƏ ƏHALİNİN MƏŞĞULLUQ İMKANLARININ ARTIRILMASINA DAİR TƏDBİRLƏR PLANI

## MƏQSƏDLƏR

- Məskunlaşan əhalinin yaşayış məntəqələrinə geri qayıdışı ardıcıllığı nəzərə alınmaqla məşğulluq imkanlarının qiymətləndirilməsi və vakansiyalar üzrə işin aparılması
- Məskunlaşan əhalinin peşə hazırlığının və tədrisinin təşkili
- İctimai işlər və özünüməşğulluq proqramının təşkili və dəstəklənməsi

**3**
**MƏQSƏD**

## HƏDƏF GÖSTƏRİCİLƏRİ

- Ərazilərdə dayanıqlı məşğulluğun təmin edilməsi
- Əmək bazarının stimullaşdırılması və aktiv məşğulluq mexanizmlərinin tətbiqi
- Kadr potensialının formalaşdırılması
- Qayıdan əhalinin əmək bazarına inteqrasiyasının sürətləndirilməsi
- Yerli sahibkarlıq və özünüməşğulluq hesabına yeni iş yerlərinin yaradılması
- Peşə təhsili proqramları ilə əmək resurslarının keyfiyyətinin artırılması
- Gənclər, qadınlar və həssas qruplar üçün məşğulluq imkanlarının genişləndirilməsi

**20**
**TƏDBİR**

# 14. MİLLİ STANDARTLAŞDIRMA SİSTEMİNİN BEYNƏLXALQ TƏLƏBLƏRƏ UYĞUNLAŞDIRILMASINA DAİR 2023–2025-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

**5**
**PRİORİTET İSTİQAMƏT**

**3**
**MƏQSƏD**

**22**
**TƏDBİR**

## PRİORİTET İSTİQAMƏTLƏR

- Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, texniki tənzimləmə sisteminin formalaşdırılması
- Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması
- Texniki tənzimləmə sahəsində infrastruktur təminatının yaxşılaşdırılması
- Texniki tənzimləmənin şamil olunduğu malların təhlükəsizliyinə risk əsaslı dövlət nəzarəti sisteminin formalaşdırılması
- Milli akkreditasiya sisteminin beynəlxalq akkreditasiya sisteminə uyğunlaşdırılması

## MƏQSƏDLƏR

- Texniki tənzimləmə sisteminin formalaşdırılması
- Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması
- Texniki tənzimləmə sahəsində dövlət nəzarəti sisteminin formalaşdırılması

# 15. CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ PEŞƏ TƏHSİLİNİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNƏ VƏ MÖVCUD İNFRASTRUKTURUN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR 2025–2030-CU İLLƏR ÜÇÜN FƏALİYYƏT PLANI

## PRİORİTETLƏR

- Cəzaçəkmə müəssisələrində peşə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi
- Cəzaçəkmə müəssisələrində peşə təhsili üçün infrastrukturun, avadanlığın qurulması və təkmilləşdirilməsi
- Məhkumlar üçün peşə təhsilinin səmərəli təşkili və keyfiyyətinin yüksəldilməsi məqsədilə institusional tədbirlərin həyata keçirilməsi
- Peşə təhsilinə cəlb edilmiş məhkumların cəzaçəkmə müəssisələrində ödənişli fəaliyyətə cəlb edilməsi mexanizminin hazırlanması
- Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin işlə təmini ilə bağlı birgə fəaliyyətin təşkili və məlumatlandırma

## MƏQSƏDLƏR

- Cəzaçəkmə müəssisələrində peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılması
- Cəzaçəkmə müəssisələrinin peşə təhsili ilə bağlı mövcud infrastrukturunun təkmilləşdirilməsi
- Cəzaçəkmə müəssisələrində əmək bazarının tələblərinə uyğun yeni peşə təhsili infrastrukturunun formalaşdırılması
- Cəzaçəkmə müəssisələrində peşə təhsilinə cəlb edilmiş və azadlığa buraxılmış şəxsləri işlə təmin etmiş sahibkarlar (işəgötürənlər) üçün dəstək mexanizminin formalaşdırılması
- Cəzaçəkmə müəssisələrində peşə təhsili sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi



**5**
**PRİORİTET**



**5**
**MƏQSƏD**



**18**
**TƏDBİR**

# 16. AZƏRBAYCAN RESPUBLİKASINDA RƏSMİ STATİSTİKANIN İNKİŞAFINA DAİR 2026–2030-CU İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI

## PRİORİTETLƏR

- Statistik müşahidələr və onlara dair metodologiyalar
- Rəsmi statistika istehsalının hüquqi və informasiya təminatı
- Beynəlxalq əməkdaşlıq
- Maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi
- Milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi

## MƏQSƏDLƏR

- Sosial, iqtisadi və çoxsahəli statistika sahəsində statistik sorğuların təşkili, göstəricilər sistemlərinin və metodologiyaların hazırlanması və (və ya) təkmilləşdirilməsi, MHS–2025-in Azərbaycan Respublikasında tətbiqi, ölkə iqtisadiyyatının strukturunun və sahələrarası əlaqələrin təhlilinə imkan verən ehtiyat və istifadə cədvəllərinin tərtib edilməsi
- Rəsmi statistik materialların istehsalının hüquqi və informasiya təminatının gücləndirilməsi
- Beynəlxalq əməkdaşlığın genişləndirilməsi
- Maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi
- Milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi

**5 PRİORİTET**

**5 MƏQSƏD**

**40 TƏDBİR**

# 17. AZƏRBAYCAN RESPUBLİKASINDA GENDER (KİŞİ VƏ QADINLARIN) BƏRABƏRLİYİ ÜZRƏ 2026–2028-Cİ İLLƏR ÜÇÜN MİLLİ FƏALİYYƏT PLANI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Gender bərabərliyinin təmin olunması sahəsində hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi
- Qadınların ictimai fəallığının artırılması
- Qadınların məşğulluğunun dəstəklənməsi
- Təhsil sahəsində gender bərabərliyinin nəzərə alınması
- Sosial cəhətdən həssas qrupdan olan qadınların tibbi, psixoloji və hüquqi yardımlara çıxış imkanlarının genişləndirilməsi
- İqlim dəyişiklikləri ilə mübarizə sahəsində gender bərabərliyinin nəzərə alınması
- Media sahəsində gender bərabərliyinin təşviqi
- Gender bərabərliyinin təmin olunması ilə bağlı vəziyyətin təhlili və qiymətləndirilməsi

## MƏQSƏDLƏR

- Gender bərabərliyinin təmin edilməsi üzrə hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi
- Qadınların ictimai, sosial və iqtisadi fəallığının artırılması, sosial cəhətdən həssas qrupdan olan qadınların dəstəklənməsi
- Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin aradan qaldırılması ilə bağlı tədbirlərin gücləndirilməsi
- Cəmiyyətdə gender bərabərliyi mədəniyyətinin təbliği və əhalinin məlumatlılıq səviyyəsinin artırılması



**8**

**PRİORİTET İSTİQAMƏT**



**4**

**MƏQSƏD**



**35**

**TƏDBİR**

# 18. AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFINA DAİR 2026–2029-CU İLLƏR ÜÇÜN STRATEGİYA

## PRİORİTETLƏR

- İqtisadiyyatın rəqəmsal infrastrukturla təmini və müəssisələrin transformasiyası
- Startapların inkişafı və maliyyələşmə mexanizmlərinin gücləndirilməsi
- İnvestisiya mühitinin yaxşılaşdırılması və qlobal bazarlara inteqrasiya
- Rəqəmsal innovasiya ekosisteminin inkişafı və şəbəkələşmə
- Rəqəmsal bacarıqların əmək bazarının tələblərinə uyğunluğunun artırılması
- Təhsil, karyera və rəqəmsal savadlılıq imkanlarının genişləndirilməsi
- Strategiyanın səmərəli icrasının təmini üçün monitorinq mexanizminin gücləndirilməsi
- İqtisadi fəaliyyət sahələri üzrə data əsaslı qərarvermə potensialının artırılması
- İdarəetmədə rəqəmsal infrastruktur və texnoloji modellərin tətbiqi

## MƏQSƏDLƏR

- Rəqəmsal transformasiyanı sürətləndirməklə dayanıqlı iqtisadi artımın təmin olunması
- İqtisadiyyatda işçi qüvvəsinin rəqəmsal bacarıqlarının artırılması
- Səmərəliliyə və effektivliyə əsaslanan data yönümlü idarəetmənin formalaşdırılması

**9**
**PRİORİTET**

**3**
**MƏQSƏD**

**50**
**TƏDBİR**

# 19. AZƏRBAYCAN RESPUBLİKASINDA MƏHKƏMƏ EKSPERTİZASI SAHƏSİNİN İNKİŞAFINA DAİR 2026–2030-CU İLLƏR ÜÇÜN KONSEPSİYA

**5 PRİORİTET**

**4 MƏQSƏD**

**21 TƏDBİR**

## PRİORİTETLƏR

- Məhkəmə ekspertizası sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətində keyfiyyət təminatı sisteminin yaradılması və ayrı-ayrı növ məhkəmə ekspertizalarının aparılması sahəsində vahid standartların müəyyən olunması
- Məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsallaşdırılması
- Özəl məhkəmə ekspertlərinin səmərəli fəaliyyətinin təmin edilməsi
- Məhkəmə ekspertizası idarələrinin kadr potensialının və məhkəmə ekspertlərinin sosial müdafiəsinin gücləndirilməsi
- Məhkəmə ekspertizası idarələrinin infrastrukturunun, maddi-texniki təminatının gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin edilməsi

## MƏQSƏDLƏR

- Azərbaycanda məhkəmə ekspertizası sahəsinin qabaqcıl beynəlxalq standartlara və müasir çağırışlara uyğun təşkil edilməsi
- Ekspert rəylərinin keyfiyyətinin artırılması
- İnsanların hüquq və azadlıqlarının etibarlı təmin olunması
- Ədalət mühakiməsinin çevik və səmərəli aparılması

# 20. AZƏRBAYCAN MƏDƏNİYYƏTİ – 2040 AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT KONSEPSİYASI

## PRİORİTET İSTİQAMƏTLƏR

- Mədəniyyət sahəsində idarəetmənin təkmilləşdirilməsi
- Azərbaycan dilinin inkişafı
- Davranış mədəniyyəti və bilgi mədəniyyəti
- Ədəbiyyatın inkişafı
- İncəsənətin inkişafı
- Mədəni irsin qorunması və inkişafı
- Mədəni və yaradıcı sənayenin inkişafı
- Mədəniyyət diplomatiyasının inkişafı

## MƏQSƏDLƏR

- Azərbaycan dilinin, incəsənətinin və ədəbiyyatının mədəniyyətdəki rolunun artırılması
- Mədəniyyət və Yaradıcı Sahələrin inkişafı, iqtisadiyyata inteqrasiyası və məşğulluq səviyyəsinin artırılması
- Mədəniyyətin ÜDM-də payının artırılması
- Mədəni irsin qorunması və əlaqəli infrastrukturun müasir tələblərə uyğunlaşdırılması
- Mədəni turizmdə müasir dəyər zəncirinin formalaşdırılması
- Mədəniyyət sahəsində əqli mülkiyyət hüquqlarının qorunmasının təkmilləşdirilməsi
- Mədəniyyətin rəqəmsal ekosisteminin yaradılması
- Mədəniyyət nümunələrinin beynəlxalq siyahılara daxil edilməsi
- Mədəniyyətə investisiyaların artırılması və diversifikasiyası və s.

**8**
**PRİORİTET İSTİQAMƏT**

**15**
**MƏQSƏD**

**84**
**TƏDBİR**

# 21. 2026–2029-CU İLLƏR ÜÇÜN NAFTALAN NEFTİNİN VƏ ONDAN HAZIRLANAN PREPARATLARIN MÜALİCƏVİ TƏSİRİNİN BEYNƏLXALQ MİQYASDA TANIDILMASINI TƏMİN ETMƏK MƏQSƏDİLƏ YENİ TİBBİ ARAŞDIRMALAR APARILMASINA VƏ SÖZÜGEDƏN MƏHSULLARDAN TİBBİ MƏQSƏDLƏR ÜÇÜN DAHA GENİŞ İSTİFADƏ OLUNMASINA DAİR TƏDBİRLƏR PROQRAMI

## MƏQSƏDLƏR

- Naftalan neftinin insan sağlamlığına təsirinin qiymətləndirilməsi və tətbiq sahələrinin dəqiq müəyyən edilməsi
- Tibbi və elmi araşdırmalar aparan laboratoriya infrastrukturunun gücləndirilməsi
- Naftalan neftinin keyfiyyətli və təhlükəsiz olmasına dair təsdiqedici sənədlərin verilməsi üçün hüquqi əsasların yaradılması
- Nativ Naftalan neftinin təkrar emalı texnologiyasının işlənməsi
- Tibbi araşdırmaların, elmi tədqiqatların nəticələrinin elektronlaşdırılmasının təmin edilməsi
- Naftalan neftinin müalicəvi istifadəsi üzrə göstəriş və əks-göstərişlərin, klinik protokolların və metodiki tövsiyələrin hazırlanması
- Naftalan neftindən hazırlanan preparatlara dair tənzimləyici mexanizmlərin formalaşdırılması
- Sanatoriya-kurort müəssisələrində Naftalan neftinin gigiyenik norma və qaydalara uyğun istifadəsinə nəzarətin təmin edilməsi
- Təkrar emal və təmizləmə proseslərində ətraf mühitin mühafizəsinin təmin olunması
- Naftalan neftinin və preparatlarının beynəlxalq bazarlarda tanıdılması, ixrac və sağlamlıq turizmi imkanlarının genişləndirilməsi

**6**
**PRİORİTET**

**14**
**MƏQSƏD**

**14**
**TƏDBİR**

# 22. AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL İNKİŞAFIN SÜRƏTLƏNDİRİLMƏSİNƏ DAİR 2026–2028-Cİ İLLƏR ÜÇÜN FƏALİYYƏT PLANI

## HƏDƏF GÖSTƏRİCİLƏRİ

- Beynəlxalq reytinqlərdə Azərbaycan Respublikasının mövqeyinin yüksəldilməsi
- Müasir texnologiyanın tətbiqi üçün əlverişli şərait yaradılması
- Proaktiv qaydada göstərilən dövlət elektron xidmətlərinin payının 50 faizə çatdırılması
- İKT sektorunun qeyri-neft-qaz ÜDM-də payının, rəqəmsal məhsul və xidmətlərin illik ixracının artırılması; dövlət idarəetməsinin optimallaşdırılması və rəqəmsallaşdırılması.

## MƏQSƏDLƏR

- Rəqəmsal idarəetmənin və iqtisadiyyatın rəqəmsal transformasiyasının sürətləndirilməsi
- Milli innovasiya ekosisteminin gücləndirilməsi və texnoloji sahibkarlığın inkişaf etdirilməsi
- Müasir texnologiyalar sahəsində insan kapitalının inkişaf etdirilməsi və istedadların ölkəyə cəlb edilməsi
- Qabaqcıl texnoloji infrastrukturun qurulması və kibertəhlükəsizliyin təmin edilməsi
- Elmi tədqiqatların təşviqi və nəticələrinin kommersiyalaşdırılmasının sürətləndirilməsi
- Ölkə üzrə rəqəmsal inkişafın vahid arxitektura əsasında həyata keçirilməsinin sürətləndirilməsi
- Müasir texnologiyaların istehsalı və tətbiqi sahəsində dövlət dəstəyinin artırılması

**5**
**PRİORİTET İSTİQAMƏT**

**7**
**MƏQSƏD**

**56**
**TƏDBİR**

# Monitorinq və qiymətləndirilməsi **başa çatmış dövlət proqramları**

**“2018–2020-Cİ İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL ÖDƏNİŞLƏRİN GENİŞLƏNDİRİLMƏSİ ÜZRƏ DÖVLƏT PROQRAMI”** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli 508 nömrəli Sərəncamı ilə təsdiq olunub.

**4** İSTİQAMƏT

**16** PRİORİTET

**54** TƏDBİR

**"PLASTİK QABLAŞDIRMA TULLANTILARININ ƏTRAF MÜHİTƏ MƏNFİ TƏSİRİNİN AZALDILMASINA DAİR 2019–2020-Cİ İLLƏR ÜÇÜN TƏDBİRLƏR PLANI"** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 fevral tarixli 935 nömrəli Sərəncamı ilə təsdiq olunub.

**4** İSTİQAMƏT

**17** TƏDBİR

**“AZƏRBAYCAN RESPUBLİKASINDA BƏRK MƏİŞƏT TULLANTILARININ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ DAİR 2018–2022-Cİ İLLƏR ÜÇÜN MİLLİ STRATEGİYA"** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli 637 nömrəli Sərəncamı ilə təsdiq olunub.

**2** STRATEJİ MƏQSƏD

**5** PRİORİTET İSTİQAMƏT

**15** TƏDBİR

**“YERİN TƏKİNİN GEOLOJİ ÖYRƏNİLMƏSİNƏ VƏ MİNERAL XAMMAL BAZASINDAN SƏMƏRƏLİ İSTİFADƏYƏ DAİR 2020–2024-CÜ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI”** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq olunub.

**8** İSTİQAMƏT

**43** TƏDBİR

# Layihə idarəetməsi
## modulu

“Layihə İdarəetməsi” modulu dövlət proqramlarının icrasını sistemli şəkildə izləmək və qiymətləndirmək məqsədilə Mərkəz tərəfindən hazırlanmış innovativ bir platformadır.

### BEYNƏLXALQ METODOLOGİYALARA ƏSASLANAN FUNKSİONALLIQ

Modul beynəlxalq layihə idarəetməsi metodologiyalarına əsaslanır və həm ayrı-ayrı layihələrin, həm də ümumi strategiya və dövlət proqramlarının maliyyə və fiziki tərəqqisini real vaxt rejimində izləməyə imkan yaradır.

### LAYİHƏ MƏRHƏLƏLƏRİ ÜZRƏ MONİTORİNQ VƏ RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

Modul layihələrin planlaşdırma, icra və başa çatdırılma mərhələlərində proseslərin tam şəkildə monitorinqinə, həmçinin risklərin idarə edilməsinə və nəticələrin qiymətləndirilməsinə dəstək verir. Layihələrin gedişatı zamanı həm maliyyə, həm də fiziki icra göstəriciləri toplanır və ilkin planla müqayisə edilir, bu da layihələrin real vəziyyətini vaxtında görməyə və idarəetmədə çevik qərarlar verməyə imkan yaradır.

Hazırda modul “Vahid Elektron Hesabatlılıq Portalı”, eləcə də “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” və “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” üzrə portallarda tətbiq olunur.



**9 DÖVLƏT PROQRAMINDA TƏTBİQ OLUNUR**

**MODUL VASİTƏSİLƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ HƏYATA KEÇİRİLƏN LAYİHƏLƏRİN SAYI**

**≈1500**

# Qiymət izləmə
## tətbiqi (QİT)

QİT sistemi bazalardakı məlumatların müqayisəsi əsasında qiymətlər üzrə fərqləri və onların formalaşma nöqtələrini müəyyənləşdirmək, müxtəlif mənbələrdən toplanan məlumatların analitik təhlilini aparmaq, qiymət artımlarının səbəblərini araşdırmaq, vaxtında operativ və çevik müdaxilələr etmək məqsədilə yaradılıb.

QİT-də idxal-topdansatış-pərakəndə satış zəncirinin formalaşmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən müvafiq məlumatlar əldə edilir.

### QİT-İN İŞLƏMƏ MEXANİZMİ

**Dövlət Gömrük Komitəsi**

Məhsulun adı
Statistik dəyər
İnvoys dəyəri
Əməliyyat haqqı
İdxal rüsumu
Miqdarı
ƏDV

**İDXAL**



**Dövlət Vergi Xidməti**

**Kənd Təsərrüfatı Nazirliyi**

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi**

**Səhiyyə Nazirliyi**

Malın (işin, xidmətin) adı
Ölçü vahidi
Miqdarı, həcmi
Vahidin buraxılış qiyməti
ƏDV məbləği (manatla)



**TOPDANSATIŞ**

**Dövlət Vergi Xidməti**

**Kənd Təsərrüfatı Nazirliyi**

**Səhiyyə Nazirliyi**

**Dövlət Statistika Komitəsi**

Satıcı
Malın adı
Ölçü vahidi
Malın bir vahidinin qiyməti

**PƏRAKƏNDƏ SATIŞ**



# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**




*Monitorinq və qiymətləndirmə portalının təqdimatı*
*25 oktyabr 2019*



*“Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı” çərçivəsində monitorinq səfəri*
*13 fevral 2026*

# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**




*"İqtisadi artım" üzrə İşçi qrupun 2024-cü ilin monitorinq nəticələrinə dair müzakirəsi*
*28 yanvar 2025*



*"Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" üzrə "Sağlam həyat tərzi" Alt İşçi qrupunun iclası*
*23 sentyabr 2025*



*“İnsan kapitalı və təhsil” İşçi qrupunun 2025-ci ilin I yarımilinə dair iclası*
*15 sentyabr 2025*



*Monitorinq və qiymətləndirmə hesabatlarının təqdimatı*
*10 mart 2026*

# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**



*"Ekoloji məsələlər" üzrə İşçi qrupunun iclası*
*12 sentyabr 2025*



*"Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı" çərçivəsində Ağbənd Dövlət sərhədində buraxılış məntəqəsinə səfər*
*1 oktyabr 2025*




*"İqtisadi artım" və "Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası" üzrə alt işçi qruplarının ilk iclası*
*30 iyul 2025*




*“Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”nın icrası üzrə  indikativ planlama ilə bağlı görüş*
*18 dekabr 2025*

# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**



*Maliyyə Nazirliyində "Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanması məqsədilə yaradılmış "Makro-fiskal dayanıqlıq" üzrə Alt İşçi qrupun ilk iclası*
*25 iyul 2025*



*"Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində monitorinq səfəri*
*13 fevral 2026*




*“İqtisadi artım” işçi qrupunun ilk iclası*
*19 Sentyabr 2023*



*“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasının monitorinqi çərçivəsində Xızı-Abşeron Külək Elektrik Stansiyasına səfər*
*13 may 2025*

# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**




*Xankəndidə Qarabağ Universitetində "Yaşıl enerji zonaları: konseptual yanaşmalar, ilkin nəticələr və çağırışlar" mövzusunda tədbir*
*16 dekabr 2025*



*Nazirlər Kabinetində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı iclas*
*24 May 2024*




*"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına nəzarət və hesabatlılıq portalına dair təlim*
*22 iyun 2023*



*"İnsan kapitalı və təhsil üzrə" İşçi qrupunun iclası*
*16 fevral 2023*

# Monitorinq və qiymətləndirmə fəaliyyəti **fotolarda**



*“İnklüziv sosial inkişaf və sosial təminat” üzrə İşçi qrupun iclası*
*27 yanvar 2025*




*“Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”çərçivəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanına səfər*
*3 oktyabr 2025*

# Strateji Yol
## Xəritələri

### STRATEJİ YOL XƏRİTƏLƏRİNİN HAZIRLANMASI, TƏQDİMATI VƏ KOMMUNİKASİYASI

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanına əsasən, monitorinq, qiymətləndirmə və kommunikasiya tədbirlərinin keçirilməsi İİTKM-ə tapşırılıb.

İİTKM-in kordinatorluğu ilə keçirilən yerli və beynəlxalq tədbir və görüşlərdə SYX barədə təqdimatlar edilib. Hər il Strateji Yol Xəritələrinin monitorinq və qiymətləndirmə nəticələri barədə infoqrafikalar əsasında məlumatlar dərc olunub.

Prezidentin Fərmanına əsasən, milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektoru üzrə 12 strateji yol xəritəsi hazırlanıb. Bu sənədlər 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və 2025-ci ildən sonrakı dövrü əhatə edib.

### ƏSAS SEKTORLAR ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİNƏ DAXİLDİR

| | | |
|---|---|---|
| Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi |
| Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi |
| Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi |
| Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi | Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi |

# Strateji Yol
## Xəritələri

Strateji Yol Xəritələri Azərbaycanda iqtisadi inkişafın yeni modelinə töhfə verib, dövlət-özəl sektor əməkdaşlığını gücləndirib, ixracın artırılması, investisiyaların cəlb edilməsi, qeyri-neft sektorunun inkişafı və milli iqtisadiyyatın modernləşdirilməsi istiqamətində əsaslı dönüş yaradıb, nəticədə diversifikasiya və dayanıqlı artım təmin edilib.

**STRATEJİ YOL XƏRİTƏSİNDƏ
DAYANIQLI İQTİSADİ İNKİŞAFA NAİL OLUNMASI ÜÇÜN
4 ƏSAS STRATEJİ HƏDƏF**



# Strateji Yol Xəritələri **fotolarda**






*"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" üzrə ictimai müzakirə*
*21 iyun 2016*

# Strateji Yol Xəritələri
# **fotolarda**



*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Edvard Preskott İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində*
*1 oktyabr 2016*




*"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin Lənkəranda ictimai müzakirəsi*
*9 iyul 2016*



*“Ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi”nə dair ictimai müzakirə*
*26 sentyabr 2016*




*"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" üzrə ictimai müzakirə*
*21 iyun 2016*

Strateji Yol Xəritələri
# fotolarda



*"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" üzrə ictimai müzakirə*
*21 iyun 2016*




*Vüsal Qasımlının Avropa İttifaqının Azərbaycan nümayəndəliyində avropalı diplomatlarla keçirilən görüşü*
*16 dekabr 2016*

# Makroiqtisadi təhlil və proqnoz

3

# Makroiqtisadi
# təhlil və proqnoz

## "ECONLAB" İQTİSADİ TƏHLİL LABORATORİYASI

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Asiya İnkişaf Bankı, Avropa İttifaqı və İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin dəstəyilə "EconLAB" iqtisadi təhlil laboratoriyası yaradılıb. Laboratoriyada makro, mezo və mikro səviyyələrdə təhlillərin aparılması üçün bir sıra modellərdən istifadə olunur.

## İQTİSADİ LABORATORİYADA QURULMUŞ MODELLƏRİN SİYAHISI

- **Xərclər-buraxılış modeli**
- **Ümumi tarazlıq modeli**
- **Dinamik stoxastik ümumi tarazlıq modeli**
- **Maliyyə proqramlaşdırması modeli**
- **ORANI modeli**
- **Makroekonometrik proqnoz modelləri**
- **Kompleks adaptiv gözləntilər modeli**
- **Sosial hesablar matrisi əsasında multiplikator modeli**

| | STATİK | DİNAMİK |
|---|---|---|
| MAKRO | • Ümumi tarazlıq modeli<br>• Xərclər-Buraxılış modeli | • Maliyyə Proqramlaşdırılması modeli<br>• ORANI modeli |
| MEZO | • Ümumi tarazlıq modeli<br>• Xərclər-Buraxılış modeli | • ORANI modeli |
| MİKRO | • Mikrosimulyasiya modeli | |

# Makroiqtisadi **təhlil və proqnoz**

### Xərclər-Buraxılış modeli

Xərclər-Buraxılış modeli milli iqtisadiyyatın müxtəlif sahələri/sektorları arasındakı qarşılıqlı asılılığı dəyər ifadəsində özündə ehtiva edən iqtisadi modeldir.

### Maliyyə proqramlaşdırılması modeli

Maliyyə proqramlaşdırılması iqtisadiyyatın hazırkı vəziyyətini təhlil etmək, gələcək trendləri proqnozlaşdırmaq və bu trendləri dəyişə biləcək iqtisadi siyasəti müəyyənləşdirmək üçün istifadə olunan modeldir.

### Ümumi tarazlıq modeli

Ümumi tarazlıq modeli iqtisadi simulyasiya modeli olmaqla ölkənin iqtisadi sistemində təmsil olunan bütün istehsal sahələri və agentləri (dövlət, ev təsərrüfatları, banklar və s.) arasında birbaşa və dolayı iqtisadi əlaqələri özündə ehtiva edir.

### ORANI modeli

ORANI modeli iqtisadi simulyasiya modeli olmaqla xarici və daxili şokların uzunmüddətli təsirlərini təhlil etməyə xidmət göstərir.

### Mikrosimulyasiya modeli

Mikrosimulyasiya modeli iqtisadi və sosial siyasətin, demoqrafik dəyişikliklərin əhalinin maddi rifah halına təsirlərinin araşdırılmasında geniş istifadə edilən modeldir.




### Sosial Hesablar Matrisi əsasında Multiplikator Model

Sosial Hesablar Matrisi (SHM) istehsal proseslərini, eləcə də gəlir və ticarət axınlarını vahid çərçivədə əks etdirir. SHM əsasında qurulan modellər hər hansı sahədə formalaşan əlavə tələbin həmin sahədə və onun aralıq məhsullarından istifadə edən sektorlar üzrə istehsal artımını, eyni zamanda əhali gəlirlərinin yüksəlməsi nəticəsində müxtəlif mal və xidmətlərə tələbin genişlənməsinin iqtisadi təsirlərini qiymətləndirməyə imkan yaradır.

# Dünya İqtisadi Forumu (WEF)

## Süni Zəka Platforması

### İİTKM BU PLATFORMADA MƏZMUN TƏCHİZATÇISI STATUSUNU ƏLDƏ EDƏN İLK DÖVLƏT QURUMUDUR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) dəstəyi ilə Dünya İqtisadi Forumunun “Strategic Intelligence” (Strateji zəka) platformasına məzmun təchizatçısı olaraq üzv olub.

Süni intellekt əsasında işləyən bu platforma istifadəçilərə 250-dən çox mövzu üzrə ən aktual strateji məsələləri araşdırmaq, ən son tendensiyaları izləmək imkanı verir. Məlumatlar “transformation map” adlı interaktiv və dinamik məlumat vizuallaşdırması vasitəsilə təqdim olunur. Transformasiya xəritələri istifadəçilərə mövzular arasındakı əlaqələri dərinləşmiş şəkildə araşdırmağa və anlamağa kömək edir.

Platformada qlobal beyin mərkəzləri, dünyanın aparıcı universitetləri, beynəlxalq təşkilatlar, nüfuzlu tədqiqat institutları məzmun təchizatçısı kimi çıxış edir.

Bu əməkdaşlıq İİTKM-in ölkəmizin iqtisadi nailiyyətlərini, yerli və qlobal məsələlərlə bağlı ekspert rəylərini, eləcə də müxtəlif sahələrdəki aktual inkişafları daha geniş auditoriyaya təqdim etməsinə imkan yaradır.

Strateji zəka platforması həmçinin Azərbaycanın beynəlxalq müstəvidə mövqeyini möhkəmləndirmək və qlobal miqyasda iqtisadiyyat, sənaye, enerji və digər mühüm sahələrdə ölkəmizin nailiyyətlərini tanıtmaq üçün vasitə rolunu oynayır.



# Dünya İqtisadi Forumu (WEF)

## Süni Zəka Platforması

4SİM
DÖRDÜNCÜ SƏNAYE İNQILABININ TƏHLİLİ VƏ KOORDİNASİYA MƏRKƏZİ

Azərbaycan
Dördüncü
Sənaye İnqilabı
Mərkəzi

İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

**İİTKM**
**“Strategic Intelligence”**
**platformasına**
**qoşuldu**






# Biznes mühiti

4

# azranking.az
## portalı

www.azranking.az portalı “Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya”nın elektron idarəetmə platformasıdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi portalın idarə edilməsi üzrə prosesi həyata keçirir.



**33**

**BİZNES MÜHİTİ və BEYNƏLXALQ REYTİNQLƏR ÜZRƏ KOMİSSİYANIN İŞÇİ QRUPUNUN SAYI**

### DÖVLƏT-BİZNES DİALOQU PLATFORMASI

Komissiyanın işçi qruplarının fəaliyyətinin əlaqələndirilməsi, iclas və görüşlərin təşkil edilməsi, daxili məlumatların və müvafiq sənədlərin mübadiləsi bu platforma üzərindən reallaşır. 2019-cu ildə yaradılan, Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən www.azranking.az portalında beynəlxalq reytinqlər üzrə bütün məlumatlar, metodologiya, qiymətləndirmə, reytinq üzrə qiymətləndirilən bütün ölkələrin Azərbaycanla illər üzrə müqayisəli təhlil sistemi və digər funksiyalar mövcuddur.



**35**

**İSTİQAMƏT ÜZRƏ YOL XƏRİTƏSİ VƏ FƏALİYYƏT PLANI TƏSDİQ EDİLİB**

### PORTALIN ƏSAS PLATFORMALARI




### “RƏQƏMSAL TƏQVİM” ELEKTRON SİSTEMİ

“Rəqəmsal Təqvim” elektron sistemi Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın işçi qruplarının fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, bu sahədə əlçatanlıq və şəffaflığın artırılması məqsədilə yaradılıb.

# Dünya Bankının
# “Doing Business” hesabatı - 2019

### “DOING BUSINESS”
### AZƏRBAYCANIN “ƏN İSLAHATÇI ÖLKƏ” UĞURU

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi “Doing Business” hesabatı üzrə Azərbaycanın mövqeyinin irəliləməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirib.

**01**



“Doing Business” hesabatının 10 indikatoru üzrə statistik məlumatlar toplanıb və bu statistik göstəricilərin təhlili nəticəsində müvafiq islahatların sürətli və genişmiqyaslı tətbiqi təmin olunub.

**02**



“Doing Business” missiyasının icraçı qurumlarla görüşləri təşkil olunub və missiyanın tələb etdiyi materiallar toplanaraq təqdim edilib.

**03**



“Doing Business” islahatlarının mütəmadi kommunikasiyası aparılıb.

**04**



“Doing Business” islahatlarına dair xüsusi buraxılışlar hazırlanıb.

### “DOING BUSINESS” İSLAHATLARI

- Biznesə başlama
- Tikinti üçün icazələrin alınması
- Elektrik təchizatı şəbəkələrinə qoşulma
- Əmlakın qeydiyyatı
- Vergilərin ödənilməsi
- Sərhəddə ticarət
- Kreditlərin alınması
- Kiçik investorların maraqlarının qorunması
- Xarici ticarətin aparılması
- Müqavilələrin icrasının təmin edilməsi və müəssisənin bağlanması

## AZƏRBAYCANIN "DOING BUSINESS" HESABATINDA MÖVQEYİ - İLLƏR ÜZRƏ

### 2018

Dünya Bankının açıqladığı "Doing Business-2018" hesabatında Azərbaycan 190 ölkə arasında 57-ci yerdə qərarlaşıb. Azərbaycan 2017-ci illə müqayisədə reytinqdə 8 pillə yüksəlib.

### 2019

Dünya Bankının "Doing Business-2019" hesabatında Azərbaycan 190 ölkə arasında 25-ci pilləyə yüksələrək "Dünyanın 10 ən islahatçı dövləti" siyahısına daxil olub.

### 2020

Azərbaycan "Doing Business-2020" hesabatında islahatları inkişaf etdirən 20 ölkə sırasında olub.



# Biznes mühiti **fotolarda**









*Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan ölkəsi elan edilməsinə dair mətbuat konfransı*
*31 oktyabr 2018*




*Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan ölkəsi elan edilməsinə dair mətbuat konfransı*
*31 oktyabr 2018*

# Biznes mühiti **fotolarda**



*Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın işçi qruplarının müzakirələri*
*25 oktyabr 2018*




*"Doing Business" islahatlarına dair xüsusi nəşrin Dünya Bankı nümayəndələrinə təqdim olunması*
*4 may 2018*

# Nəşrlər

5

# Nəşrlər

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi fəaliyyətə başladığı gündən etibarən ölkədə həyata keçirilən islahat tədbirlərinin cəmiyyətə düzgün, ardıcıl və anlaşılan formada çatdırılmasını kommunikasiya fəaliyyətinin əsas prioriteti kimi müəyyən edib.

Bu çərçivədə Mərkəz tərəfindən müxtəlif analitik və maarifləndirici materiallar hazırlanıb, o cümlədən monoqrafiyalar, tematik kitablar, qrafik və vizual icmallar təqdim olunub.

## KİTABLAR

Mərkəz 2016-cı ildən etibarən aqrar sahə, sığorta, Türk dünyası, halal iqtisadiyyat, innovasiya, rəqəmsallaşma, ictimaiyyətlə əlaqələr və digər aktual istiqamətlər üzrə ümumilikdə 30 kitab hazırlayıb.

Nəşrlər dünyanın tanınmış mütəxəssislərinin cəlb edilməsi ilə, Mərkəzin əməkdaşlarının müəllifliyi və koordinatorluğu əsasında ərsəyə gəlib.




Hazırlanan kitabların bir qismi beynəlxalq nüfuza malik çap şirkətləri tərəfindən nəşr olunub, "Amazon" və "eBay" kimi qlobal satış platformalarında oxuculara təqdim edilir.

## İCMALLAR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi kommunikasiya fəaliyyətinin mühüm istiqaməti kimi analitik icmalların hazırlanmasını sistemli şəkildə həyata keçirir.

Hazırda Mərkəz tərəfindən 6 dövri icmal mütəmadi olaraq ictimaiyyətə təqdim olunur.



- İXRAC İCMALI
- İSLAHAT İCMALI
- VİDEOİCMAL
- HƏFTƏLİK İCMAL
- TÜRK İQTİSADİ İCMALI
- NƏQLİYYAT İCMALI

# Nəşrlər

## İXRAC İCMALI

“İxrac İcmalı” 2017-ci ilin aprel ayından etibarən müntəzəm olaraq aylıq dövriliklə nəşr olunur. İcmal Ədliyyə Nazirliyi tərəfindən mətbu nəşrlərin rəsmi reyestrinə daxil edilib.

Jurnalda qeyri-neft sektoru üzrə aktual statistik və analitik məlumatlar təqdim olunur, ixracatçı müəssisələrin reytinqləri formalaşdırılır. Nəşrdə dövlət qurumları tərəfindən ixracın təşviqi istiqamətində həyata keçirilən tədbirlər işıqlandırılır, ixrac fəaliyyəti ilə bağlı normativ-hüquqi bazada baş verən dəyişikliklər və yeniliklər analitik yanaşma əsasında şərh edilir.

**100+**
**İXRAC İCMALI**

**700+**
**SORĞU**
**CAVABLANDIRILIB**

## İSLAHAT İCMALI

2017-ci ilin fevral ayından etibarən yayımlanır. İcmal ölkədə həyata keçirilən iqtisadi islahatlar barədə məlumatların asan qavranılan, strukturlaşdırılmış və analitik formatda yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasına xidmət edir. İcmal islahatların mahiyyətini, nəticələrini və sosial-iqtisadi təsirlərini aydın şəkildə təqdim edən mühüm kommunikasiya vasitəsidir. Mərkəz tərəfindən ən vacib islahat tədbirləri haqqında 120-dən artıq “İslahat icmalı” hazırlanıb.

**120+**
**İSLAHAT İCMALI**

## VİDEOİCMAL

“Videoicmal” vizual kommunikasiya alətlərindən istifadə etməklə iqtisadi nailiyyətlərin, əsas göstəricilərin və prioritet istiqamətlərin geniş auditoriyaya daha anlaşılan və cəlbedici formada çatdırılmasını təmin edir. Mərkəz mütəmadi olaraq islahat proseslərinin məzmununu infoqrafik, vizual video təqdimatlar vasitəsilə şərh edir.

Bu təqdimatlar Azərbaycanın telekanallarında, sosial şəbəkələrdə və digər onlayn resurslarda  yayımlanır və islahatlara dair aparılan maarifləndirmə işlərinə dəstək olur. 10 il ərzində Mərkəz tərəfindən 400-dən artıq videoicmal hazırlanıb.

## HƏFTƏLİK İCMAL

Mərkəzin həftə ərzində həyata keçirdiyi fəaliyyətləri, görülən işləri və əsas tədbirləri əks etdirən operativ informasiya icmalı kimi hazırlanır. Mərkəz tərəfindən 180-dən artıq həftəlik icmal yayımlanıb.




## NƏQLİYYAT İCMALI

“Nəqliyyat icmalı” nəqliyyat sektorunun mövcud vəziyyətini, yük və sərnişindaşıma dinamikasını, tranzit potensialını və əsas inkişaf meyillərini təhlil edir.

İcmalda statistik göstəricilər, vizual qrafiklər və müqayisəli analizlər vasitəsilə nəqliyyat infrastrukturunun iqtisadi inkişafda rolu və perspektivləri ön plana çıxarılır.

## TÜRK İQTİSADİ İCMALI

İcmal Türk Dövlətləri Təşkilatı ilə birgə rüblük hazırlanır və Azərbaycan, ingilis, rus, türk, özbək, qazax və qırğız dilləri daxil olmaqla 8 dildə yayımlanır. İcmal Türk dünyası ölkələrində baş verən iqtisadi proseslərin sistemli və müqayisəli təhlilinə həsr olunur.

İcmalda Türk dövlətlərinin makroiqtisadi göstəriciləri, iqtisadi inkişaf trendləri, regional əməkdaşlıq imkanları, ticarət və investisiya əlaqələri, mövcud çağırışlar və perspektivlər əhatəli şəkildə təqdim olunur. Mərkəz 15-dən artıq “Türk iqtisadi icmalı” hazırlayıb.

## INVEST IN KARABAKH AND EASTERN ZANGEZUR

“Invest in Karabakh and Eastern Zangezur” icmalı 8 Noyabr – Zəfər Günü ərəfəsində ictimaiyyətə təqdim edilir. İcmal Qarabağ və Şərqi Zəngəzur regionlarının investisiya potensialını yerli və beynəlxalq investorlar üçün sistemli şəkildə təqdim etmək məqsədilə hazırlanır.

Nəşrdə kənd təsərrüfatı, sənaye, enerji və turizm sahələri üzrə mövcud və perspektiv investisiya imkanları, eləcə də sahibkarlar üçün tətbiq edilən güzəştlər və stimullaşdırıcı mexanizmlər təqdim olunur. İcmal regionun sürətli bərpası və dayanıqlı iqtisadi inkişafı barədə beynəlxalq biznes ictimaiyyətinin məlumatlandırılması baxımından mühüm mənbədir.

## ELMİ JURNAL

“İqtisadi islahatlar” elmi-analitik jurnalı Mərkəz tərəfindən təsis edilib, Ədliyyə Nazirliyi tərəfindən mətbu nəşrlərin dövlət reyestrinə daxil edilib. 3 dildə nəşr olunan jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası (AAK) tərəfindən rəsmi olaraq tanınan elmi jurnallar siyahısına daxildir.

Jurnalda iqtisadi islahatların həyata keçirilməsi, institusional dəyişikliklər, sektorlar üzrə inkişaf meyilləri və iqtisadi siyasətin effektivliyinə dair analitik və elmi məqalələr dərc olunur.

# Nəşrlər
# fotolarda







TRANZİT
İCMALI
Bakı-2025
Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi


INSUR
TECH
Professor Vüsal Qasımlının elmi redaktorluğu ilə
Dərs vəsaiti
INSURTECH


EMERALD STUDIES IN ISLAMIC ECONOMY AND FINANCE
THE ECONOMIC POTENTIAL OF ISLAMIC COUNTRIES
PART A
Economics, Demographics and Financial Services
EDITED BY
Professor Vusal Gasimli

# Nəşrlər **fotolarda**










Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və Kommunikasiya
Mərkəzi
AZƏRBAYCAN
RESPUBLİKASININ
2022-2026-cı İLLƏRDƏ
SOSİAL-İQTİSADİ
İNKİŞAF
STRATEGİYASI
2025-ci ilin birinci yarısı üzrə
MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏYƏ dair
HESABAT

# Nəşrlər **fotolarda**









# İnnovativ layihələr

6

# Mərkəzin
# innovativ layihələri

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi innovativ layihələri ilə qeyri-neft sektoru üzrə ixracın təşviqi, startap ekosisteminin inkişafı və rəqəmsal ticarətin genişləndirilməsi istiqamətində mühüm nəticələr əldə edib.

Elektron platformalar vasitəsilə sahibkarlara göstərilən xidmətlərin həcmi artıb, ixrac prosesləri sadələşdirilib və yeni bazarlara çıxış imkanları genişləndirilib.

Eyni zamanda, innovasiya və texnologiya yönümlü təşəbbüslər vasitəsilə yerli biznes subyektlərinin bilik və bacarıqları artırılıb, beynəlxalq mentorluq və təcrübə mübadiləsi imkanları yaradılıb.

Ümumilikdə, Mərkəzin innovativ layihələri rəqəmsal iqtisadiyyatın inkişafına, institusional çevikliyin gücləndirilməsinə və dayanıqlı iqtisadi artımın təşviqinə xidmət edir.

- **“AZEXPORT” PORTALI**

  azexport.az

- **“ENTERPRISEAZERBAIJAN” PORTALI**

  enterpriseazerbaijan.gov.az

- **RƏQƏMSAL TİCARƏT QOVŞAĞI (DİGİTAL TRADE HUB)**

  dth.az

- **“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ**

- **TÜRK DÜNYASI ARAŞDIRMALAR MƏRKƏZİ**

> **Avropa ölkələrində, Körfəz ölkələrində, Asiya ölkələrində bizim məhsullara maraq var, sadəcə olaraq, bu günə qədər onlarda məlumat yox idi. “Azexport” portalının yaradılması da bu istiqamətdə atılan çox ciddi bir addımdır. İndi portala bütün dünyadan sifarişlər gəlir.**

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

# Azexport
## portalı

“www.azexport.az” internet portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasında istehsal olunan malların vahid məlumat bazasının yaradılması haqqında” 2016-cı il 21 sentyabr tarixli 2349 nömrəli Sərəncamı əsasında yaradılıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu “Azexport” portalı fəaliyyət göstərdiyi 10 il ərzində ölkənin qeyri-neft sektorunun ixrac potensialının artırılmasında, yerli məhsulların dünya bazarlarına çıxarılmasında və elektron ticarət ekosisteminin inkişafında müstəsna rol oynayıb.

Portal, "Made in Azerbaijan" brendinin qlobal miqyasda tanıdılması missiyasını uğurla həyata keçirib.




**150-DƏK ÖLKƏDƏN İXRAC SİFARİŞİ**

### İQTİSADİ GÖSTƏRİCİLƏR VƏ QLOBAL BAZARLARA İNTEQRASİYA

#### İXRAC SİFARİŞLƏRİ

Fəaliyyət dövrü ərzində “Azexport” portalına dünyanın 150-dək ölkəsindən ümumi dəyəri 3 milyard ABŞ dollarından artıq ixrac sifarişi daxil olub. Sifarişlər sənaye, qida, tekstil, kənd təsərrüfatı və digər strateji sahələri əhatə edir.

#### ELEKTRON TİCARƏT PLATFORMALARINA ÇIXIŞ

“Azexport” portalı Azərbaycan məhsullarının qlobal elektron ticarət nəhənglərinə inteqrasiyasını təmin edib. Yerli məhsullar portal vasitəsilə “Amazon”, “eBay”, “Alibaba” kimi 15-dək beynəlxalq elektron ticarət platformasına çıxarılaraq dünya alıcılarına təqdim olunur.

amazon.com
ebay
Alibaba.com

## SƏRBƏST SATIŞ SERTİFİKATI (FREE SALE CERTİFİCATE)

Sərbəst satış sertifikatı Azərbaycan Respublikasından ixrac olunan yerli məhsulun ölkə ərazisində yerləşən ticarət şəbəkələrində sərbəst dövriyyədə olduğunu, norma və standartlara cavab verdiyini təsdiq edən sənəddir.

Sertifikat əsasən qida, dərman və orqanizmlə təmsada olan tibbi avadanlıqların ixracı zamanı sahibkar müraciəti əsasında könüllü olaraq təqdim olunur.

**763 SƏRBƏST SATIŞ SERTİFİKATI**

Sənədin alınması üçün sahibkarlar “Azexport” portalı vasitəsilə onlayn qaydada müraciət edərək ixrac olunacaq məhsulların Azərbaycan Respublikası ərazisində satışını təsdiq edən sənədləri (3 ədəd alqı-satqı müqaviləsi, ödəniş sənədləri və vergi hesab-fakturaları) təqdim etməklə sertifikatı əldə edə bilər. “Azexport” portalı yerli sahibkarlara 763 ədəd Sərbəst Satış Sertifikatı təqdim edib.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ VƏ TƏRƏFDAŞLIQLAR

**20-DƏK BEYNƏLXALQ MEMORANDUM**

**Əsas tərəfdaşlar**

- Dünya Ticarət Mərkəzləri Assosiasiyası (WTCA)
- Visa International
- Türkiyənin "Tradevalley" platforması
- Qazaxıstanın "Qaztrade" qurumu
- "Azərpoçt" MMC

## QLOBAL TƏQDİMAT VƏ MEDİA İŞIQLANDIRMASI

**Estoniya**
Mətbuatda dərc olunan "İnanılmaz Azərbaycan" məqaləsində “Azexport” portalının biznesin rəqəmsallaşması sahəsindəki rolu xüsusi vurğulanıb.

**Çin**
"Hangzhou Booster Tech Co. Ltd." şirkəti “Azexport” portalının biznes subyektlərinə təqdim etdiyi xidmətləri təhlil edən məqalə dərc edib.

## BEYNƏLXALQ NÜFUZ, MÜKAFATLAR VƏ REYTİNQLƏR

**BMT və ESCAP Hesabatı**
BMT-nin Asiya-Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının hesabatında “Azexport” portalı "Transsərhəd kağızsız ticarət" və Dövlət-Özəl Tərəfdaşlığı (PPP) üzrə ən yaxşı təcrübə (Best Practice) kimi təqdim olunub.

**Avropa İttifaqı ("EU4Digital")**
Layihənin rəsmi səhifəsində “Azexport” portalı tətbiqi tövsiyə olunan nümunəvi platforma kimi göstərilib.

# Enterprise Azerbaijan portalı

### MİLLİ İNNOVASİYA EKOSİSTEMİNİN QLOBAL PLATFORMASI

“www.enterpriseazerbaijan.gov.az” portalı Prezident İlham Əliyevin 19 sentyabr 2018-ci il tarixli “Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamına əsasən yaradılıb. Portalın məqsədi ölkənin investisiya cəlbediciliyini yüksəltmək və iqtisadiyyatının inkişafı üçün alternativ maliyyələşmə mənbələrindən istifadə imkanlarını artırmaqdır.

Azərbaycanda innovasiya, startap və texnologiya yönümlü sahibkarlığın inkişafını təşviq edən və dəstəkləyən, yerli ideyaları qlobal ekosistemlərə bağlayan dövlət platformasıdır.

Platforma innovasiya mədəniyyətinin formalaşması və insan kapitalının gücləndirilməsi üzrə fəaliyyət göstərir.

**188**
PORTALA YERLƏŞDİRİLƏN
**LAYİHƏ SAYI**

### PORTALIN STARTAP EKOSİSTEMİNƏ TÖHFƏSİ

**450+**
**MÜRACİƏTLƏRİN SAYI**

QLOBAL ƏHATƏ DAİRƏSİ
**23** ÖLKƏ

**200+**
**DƏSTƏKLƏNƏN STARTAPLARIN SAYI**

# “Startup School” layihələri

“Enterprise Azerbaijan” portalının “Startup School” layihələri Azərbaycanda innovasiya və sahibkarlıq mühitinin inkişafına mühüm töhfə verir. Layihələrin əsas məqsədi gənclərin innovativ potensialını gücləndirmək, texnologiya yönümlü ideyaları reallaşdırmaq və startapların qlobal bazara inteqrasiyasını təmin etməklə Azərbaycanın investisiya cəlbediciliyini artırmaqdır.

Proqramlara Azərbaycanla yanaşı, müxtəlif ölkələrdən müraciətlər daxil olur və seçilmiş komandalar beynəlxalq ekspertlər tərəfindən keçirilən intensiv təlim və praktiki sessiyalardan faydalanaraq investorlara təqdim edilir.

“Startup School” regional və beynəlxalq əməkdaşlığı genişləndirir, ABŞ, Avropa, və Asiya ölkələrinin ekosistem nümayəndələri ilə təcrübə mübadiləsi və birgə fəaliyyət platforması təmin edir.

“Startup School” layihələri ölkədə innovasiya ekosisteminin gücləndirilməsinə, gənc sahibkarların yetişdirilməsinə, Azərbaycan startaplarının beynəlxalq səviyyədə tanıdılmasına və qlobala inteqrasiyasına dəstək olur.

Startup School Enterprise Azerbaijan

## STARTAP SCHOOL 1

**200+** STARTAP LAYİHƏSİ

**1000+** İŞTİRAKÇI

**10** BEYNƏLXALQ MENTOR

**15** PRAKTİK TƏLİM SESSİYALARI

**60+** DƏRS SAATI

**11** YERLİ VƏ QLOBAL TƏRƏFDAŞ

# "Startup School" layihələri

### STARTAP SCHOOL 2: AI FOR GREEN SOLIDARITY

**100+** STARTAP LAYİHƏSİ

**1000+** İŞTİRAKÇI

**12** BEYNƏLXALQ MENTOR

**15** PRAKTİK TƏLİM SESSİYALARI

**60+** DƏRS SAATI

**15** YERLİ VƏ QLOBAL TƏRƏFDAŞ

### STARTAP SCHOOL 3: GREEN AND DIGITAL SILK ROAD

**140+** STARTAP LAYİHƏSİ

**1500+** İŞTİRAKÇI

**30+** BEYNƏLXALQ MENTOR

**17** PRAKTİK TƏLİM SESSİYALARI

**200+** DƏRS SAATI

**38** YERLİ VƏ QLOBAL TƏRƏFDAŞ

## STARTAP SCHOOL 4:
## FIVE CONTINENTS, 500 STARTUPS

"Startup School 4: Five Continents, 500 Startups" layihəsi "Enterprise Azerbaijan" portalının təşəbbüsü ilə keçirilən və Azərbaycanın qlobal innovasiya ekosistemindəki rolunu gücləndirməyi hədəfləyən bir platformadır.

Layihənin məqsədi beş qitədən olan innovatorları bir araya gətirərək Azərbaycandan olan startapların və ekosistem oyunçularının qlobal əməkdaşlıqlarını genişləndirmək, həmçinin qlobal innovasiya ekosisteminə inteqrasiyalarına töhfə verməkdir.

## PORTALIN BEYNƏLXALQ LAYİHƏLƏRİ

www.enterpriseazerbaijan.gov.az portalı Britaniya Şurasının və Böyük Britaniyanın “Newcastle” Universitetinin dəstəyi ilə “Yaradıcı Qığılcım” (Creative Spark) layihəsini icra edib. “Təlimçiyə Təlim” və “Big Idea Challenge” adlı iki mərhələdə reallaşdırılan layihənin nəticəsi olaraq müəllim və tələbələrdən ibarət heyət “Newcastle” Universitetinə səfər ediblər.

Startup School 1 Enterprise Azerbaijan

Startup School 2 Enterprise Azerbaijan
AI for Green Solidarity

Green & Digital Silk Road
Startup School 3 Enterprise Azerbaijan
International Acceleration Program

Startup School 4 Enterprise Azerbaijan
5 Continents, 500 Startups
AMERİKA AVROPA ASİYA AFRİKA AVSTRALİYA

# “Bir Pəncərə”
## İxraca Dəstək Mərkəzi

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli “Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanına əsasən yaradılıb.

İxracatçı sahibkarlar tələb olunan bütün sertifikatları “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən daha tez, səmərəli, əlavə resurs və vaxt sərf etmədən əldə edə bilirlər. Mərkəz yerli sahibkarlara konsultasiyaların verilməsi, biznes planının yazılması, gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması və ixrac subsidiyalarının verilməsi ilə bağlı dəstək göstərir.

**MƏRKƏZ VASİTƏSİLƏ 1.5 MLRD. $ İXRAC HƏYATA KEÇİRİLİB**



**16 000+ MÜRACİƏT**

**3 451 SAHİBKAR**



**“BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏ GÖSTƏRİLƏN XİDMƏTLƏR**

- İqtisadiyyat Nazirliyi tərəfindən ixrac olunan məhsulun mənşə ölkəsini təsdiq edən mənşə sertifikatı.
- Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ixrac olunan yeyinti məhsullarına idxalçı ölkələrin, o cümlədən Avropa İttifaqı ölkələrinin tələblərinə uyğun olan qida təhlükəsizliyi sertifikatı, bitki və bitkiçilik məhsullarına fitosanitar, heyvan və heyvan mənşəli məhsullar, xammal, yem və yem əlavələri məhsullarına isə beynəlxalq baytarlıq sertifikatı,qida zənciri subyektlərinin ve obyektlərinin qeydiyyatı və təsdiqi. Bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin qeydiyyatı və təkrar qeydiyyatının ilkin mərhələsi.
- Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən nadir və kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin ixracı üçün CITES beynəlxalq icazə sertifikatı.
- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini məzmunlu ədəbiyyatın, audio, video materialların ixracı ilə bağlı icazə sənədi.
- Mədəniyyət Nazirliyi tərəfindən mədəni sərvətin (xalça və xalça məmulatları, rəsm əsərləri, sənətkarlıq nümunələri, musiqi alətləri və zərgərlik əşyaları) ixracı zamanı mədəni sərvəti mühafizə şəhadətnaməsi.

## "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC HƏYATA KEÇİRİLƏN 10 ÖLKƏ



- İSVEÇRƏ
- TÜRKİYƏ
- RUSİYA
- GÜRCÜSTAN
- İTALİYA
- QAZAXISTAN
- QIRĞIZISTAN
- ÖZBƏKİSTAN
- ÇİN
- TÜRKMƏNİSTAN

## "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLAR

- QİYMƏTLİ METALLAR
- PAMBIQ MAHLICI
- POLAD MƏHSULLARI
- MEYVƏ ŞİRƏLƏRİ VƏ SPİRTSİZ İÇKİLƏR
- SÜD MƏHSULLARI



# Rəqəmsal Ticarət Qovşağı
## Digital Trade Hub - DTH

**"Biz yeni iqtisadi modelə keçməklə bundan sonra iqtisadiyyatımızı ancaq islahatlar, innovasiyalar, texnologiyalar və qeyri-neft sektoru hesabına inkişaf etdirəcəyik."**

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Rəqəmsal Ticarət Qovşağı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 fevral tarixli "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına əsasən yaradılıb.

Rəqəmsal Ticarət Qovşağı (DTH) Azərbaycan dövləti tərəfindən yaradılan sərhədlərarası kağızsız ticarətin aparılması və məsafədən biznes əməliyyatlarının təqdim edilməsi üçün rəqəmsal resursdur.

Qovşaq dünyada ikinci dəfə dəfə m-Rezidentlik və ilk dəfə onlayn vahid ixrac ərizəsi təqdim edib. Bu qovşaq vasitəsilə həm əcnəbi vətəndaşlar, həm də yerli ixracatçılar öz tərəfdaşları ilə vahid platforma üzərindən əməliyyatlar apara bilərlər.

### AZƏRBAYCANIN VİRTUAL FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ

DTH vasitəsilə 30 ölkədən 100-dən çox əcnəbi vətəndaşa Azərbaycanın Virtual Fərdi İdentifikasiya nömrəsi, ölkədə dövlət və biznes elektron xidmətlərindən yararlanmaları üçün fərdi və biznes tipli elektron imza sertifikatları təqdim edilib.

**100+ ƏCNƏBİ VƏTƏNDAŞA AZƏRBAYCANIN VİRTUAL FƏRDİ İDENTİFİKASİYA NÖMRƏSİ TƏQDİM EDİLİB**

## AZƏRBAYCANIN İLK ELEKTRON VƏ MOBİL REZİDENTLƏRİ

Rəqəmsal Ticarət Qovşağı vasitəsilə Azərbaycanın ilk elektron rezidentliyi Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Jankauskasa təqdim edilib. Azərbaycanda dünya tarixində ilk dəfə qeyri-rezidentə mobil imza - ASAN imzanı məhz Rəqəmsal Ticarət Qovşağı ISESCO-nun baş direktoru Əbdüləziz ibn Osman-əl Tuveycriyə təqdim edib.

## RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ ƏHATƏ DAİRƏSİ

Rəqəmsal Ticarət Qovşağı vasitəsilə 21 ölkədən 100-ə yaxın qeyri-rezident rezidentlik əldə edib. Müraciətlər əsasən Türkiyə, İran, Pakistan, Yaponiya və İsveçdən daxil olub. Bundan başqa, Avropa ölkələrindən Almaniya, İsveç, Birləşmiş Krallıq, Estoniya, İtaliya, Belarus və s., ərəb ölkələrindən Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya kimi ölkələrin vətəndaşları m-rezidentlik əldə ediblər.

Xidmətlərin müasir texnoloji çağırışlara uyğunlaşdırılması və funksional imkanlarının genişləndirilməsi məqsədilə platformanın yeni arxitektura əsasında inkişaf etdirilməsi istiqamətində eSIM texnologiyasına əsaslanan "mResidency" xidmət modelinin tətbiqinə keçid prosesi reallaşdırılır.

**60**

**QEYRİ-REZİDENTƏ**




**REZİDENTLİK TƏQDİM EDİLİB**

> **İİTKM-in 10 illik fəaliyyəti göstərdi ki, dövlət və biznes arasında real tərəfdaşlıq konkret nəticələr yaradır. Elmi yanaşmaya əsaslanan idarəetmə modeli və açıq dialoq mühiti ölkənin rəqabət qabiliyyətini gücləndirən mühüm amillərdir.**

***Yana Krimpe***
*"B.EST Solutions" şirkətinin təsisçisi*

# İnnovativ layihələr **fotolarda**




*“Enterprise Azerbaijan” portalının “Startup School 3” layihəsinin "Demo Day" tədbiri*
*21 noyabr 2025*




*“Rəqəmsal ticarət forumu: İpək Yolunun rəqəmsallaşması” beynəlxalq konfransı*
*9 oktyabr 2019*




*"Bir pəncərə" İxraca Dəstək Mərkəzinin təqdimat mərasimi*
*25.05.2017*




*"Enterprise Azerbaijan" portalının təqdimat mərasimi*
*2 oktyabr 2018*

# İnnovativ layihələr **fotolarda**




*"Yaşıl və Rəqəmsal İpək Yolu" beynəlxalq akselerasiya proqramının açılış mərasimi*
*08 avqust 2025*




*Rəqəmsal Ticarət Qovşağının ikinci beynəlxalq konfransı*
*24 oktyabr 2018*




*"Azexport" portalının tərəfdaşlığı ilə keçirilən "II Türk ticarət sərgisi"*
*10-12 iyun 2025*




*"İnnovasiya və sahibkarlıq: startap ekosistemi" kitabının təqdimatı*
*30 yanvar 2024*

# İnnovativ layihələr **fotolarda**




*"Startup School" layihəsinin qalibi "E-Legal" komandası*
*19 may 2023*




*"Startup School" qalibləri ABŞ-da*
*28 sentyabr 2023*




*Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri,*
*səfir Kestutis Jankauskasa ilk dəfə elektron rezidentliyin təqdim edilməsi*
*24.10.2018*




*"Azexport.az" portalının rəqəmsal inzibati binası*

# İnnovativ layihələr **fotolarda**




*"Enterprise Azerbaijan" portalının keçirdiyi intellektual yarışın qalibləri*
*23 oktyabr 2024*



*"Azexport.az" portalı tərəfindən Azərbaycan Texniki Universitetində keçirilən təlim*
*1 may 2025*

Türk Dünyası
Araşdırmalar
Mərkəzi

7

# Türk Dünyası Araşdırmalar
## Mərkəzi

2023-cü ilin fevral ayında İİTKM-in nəzdində təsis olunmuş Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) əsas missiyası türk dünyasında iqtisadi proseslərin dərin elmi təhlilini aparmaq, iqtisadi tədqiqatlar həyata keçirmək, Türk dövlətləri üçün səmərəli iqtisadi siyasət tövsiyələri hazırlamaq və bu sahədə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir.

**TÜRK DÜNYASI ARAŞDIRMALAR MƏRKƏZİNİN ƏSAS FƏALİYYƏT İSTİQAMƏTLƏRİ**

Türk Dünyası 2040 Vizyonu

Türk Dövlətləri Təşkilatının 2022-2026 Strategiyası

Türk Dövlətləri Təşkilatının (TDT) üzv və müşahidəçi ölkələri səviyyəsində dayanıqlı iqtisadi inkişafın təmin edilməsi istiqamətində elmi-analitik yanaşmalar ortaya qoymaq, təklif, proqnoz və tövsiyələr hazırlamaq

Türk dövlətlərinin makroiqtisadi göstəricilərinə dair interaktiv geo-iqtisadi məlumat portallarının yaradılması istiqamətində TDT Katibliyi ilə birgə innovativ layihələr icra etmək

### TƏRƏFDAŞ QURUMLAR

- TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI
- TÜRK İNVESTİSİYA FONDU
- TÜRK TİCARƏT VƏ SƏNAYE PALATASI
- TÜRK AKADEMİYASI
- TÜRK DÜNYASI İQTİSADİ SİYASƏT ARAŞDIRMA MƏRKƏZLƏRİNİN ŞƏBƏKƏSİ (ERCNET)
- İBN HALDUN UNİVERSİTETİNDƏ HEYDƏR ƏLİYEV AVRASİYA ARAŞDIRMALAR MƏRKƏZİ
- ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASI YANINDA İQTİSADİ TƏDQİQATLAR VƏ İSLAHATLAR MƏRKƏZİ

# Türk Dünyası Araşdırmalar Mərkəzi
# **nəşrlərdə**









# Türk Dünyası Araşdırmalar Mərkəzi **fotolarda**



*"Orta Dəhliz 360°: Geosiyasətdən rəqəmsal transformasiyaya, ailədən yaşıl inkişafa" mövzusunda konfrans*
*11 iyun, 2025*




*2-ci Azərbaycan Halal Biznes (AZHAB) Forumu*
*08 oktyabr 2025*

# Türk Dünyası Araşdırmalar Mərkəzi **fotolarda**




*Şimali Kipr Türk Cümhuriyyətindəki Prezident Kompleksində İİTKM-in icraçı direktoru Vüsal Qasımlıya "İkinci Beynəlxalq Türk Dünyası Elm Mükafatları" (2. Uluslararası Türk Dünyası Bilim Ödülleri) üzrə ali mükafat təqdim edilib*
*17 oktyabr 2025*



*Macarıstanın Ludovika Dövlət Xidmətləri Universitetinə "Türk İqtisadi İcmalı" təqdim olunub*
*16 oktyabr 2025*




*Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyevə İTKM-in nəşri olan "Yeni Qarabağnamə" kitabı təqdim edilib*
*03 may 2023*



*TDT-nin Baş katibinin iştirakı ilə "Türk Dövlətləri İqtisadiyyatı" kitabının təqdimatı*
*25 sentyabr 2023*

# Türk Dünyası Araşdırmalar Mərkəzi **fotolarda**




*Azərbaycan–Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumu*
*24 noyabr 2025*




*“Azexport” portalının tərəfdaşlığı ilə keçirilən “II Türk Ticarət Sərgisi”*
*10—12 iyun 2025*

# Beynəlxalq əməkdaşlıq

8

# Beynəlxalq **əməkdaşlıq**

Mərkəz 10 il ərzində iqtisadi islahatların elmi əsaslarla təhlili, nəticəyönümlü idarəetmə mexanizmlərinin tətbiqi və rəqəmsal transformasiya təşəbbüslərinin təşviqi istiqamətində beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq qurub. Qlobal və regional təşkilatlarla birgə həyata keçirilən layihələr, hazırlanmış analitik hesabatlar və ortaq tədqiqatlar Azərbaycanın iqtisadi inkişaf modelinin beynəlxalq müstəvidə tanıdılmasına töhfə verib.

Mərkəz beynəlxalq ekspert şəbəkələri ilə əməkdaşlıq edərək makroiqtisadi təhlillər, monitorinq və qiymətləndirmə mexanizmləri, eləcə də institusional islahatlar üzrə qabaqcıl təcrübənin ölkəyə transferini təmin edir.

Eyni zamanda, müxtəlif ölkələrin beyin mərkəzləri və tədqiqat institutları ilə qurulan tərəfdaşlıqlar elmi bilik mübadiləsini və birgə nəşrlərin hazırlanmasını əhatə edir. Rəqəmsal ticarət, ixracın təşviqi və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan layihələr Azərbaycanın qlobal iqtisadi inteqrasiyasını gücləndirir.

**70+**



**ƏMƏKDAŞLIQ EDİLƏN**

**BEYNƏLXALQ QURUMLAR**

## MEMORANDUMLAR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi 10 il ərzində 130-dan artıq memorandum imzalayıb. Bu sənədlər əsasən elmin kommersiyalaşdırılması, elektron ticarətin genişləndirilməsi, investisiya və biznes mühitinin yaxşılaşdırılması kimi strateji istiqamətləri əhatə edir. Memorandumlar beynəlxalq təşkilatlar və nüfuzlu qurumlarla birgə layihələrin icrasına, təlim və bilik mübadiləsinə imkan yaradır.

**130+**




**MEMORANDUM**

İmzalanan sənədlər əsasında Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), SOCAR, Əqli Mülkiyyət Agentliyi, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO), Beynəlxalq Maliyyə Korporasiyası, Azərbaycan Beynəlxalq Bankı, “Azərpoçt” MMC, Asiya İnkişaf Bankının Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) İnstitutu, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İslam Ölkələri üzrə Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzi (SESRIC), Özbəkistan Respublikası Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzi, Qazaxıstanın “QazTrade” Ticarət Siyasətinin İnkişafı Mərkəzi, ABŞ-ın Nevada Universiteti Özmen Sahibkarlıq Mərkəzi və digər təşkilatlarla əməkdaşlıq edilir.

# Beynəlxalq **əməkdaşlıq**

## XARİCİ SƏFƏRLƏR

**≈30 ÖLKƏ**




**≈300 SƏFƏR**

# Beynəlqxalq əməkdaşlıq
# **fotolarda**




*Yaponiyada Asiya Beyin Mərkəzləri Forumunda “Orta Dəhliz” kitabının təqdimatı*
*03 noyabr 2025*




*Beynəlxalq Valyuta Fondunun Qafqaz, Mərkəzi Asiya və Monqolustan ölkələri üzrə Regional Potensialın Gücləndirilməsi Mərkəzi tərəfindən Qazaxıstanın Almatı şəhərində keçirilən regional seminar*
*3 noyabr 2025*

# Beynəlqxalq əməkdaşlıq **fotolarda**




*Çində keçirilən "Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələr üçün süni intellektin inkişafı üzrə beynəlxalq seminar"*
*31 iyul 2025*



*"Azexport" portalı və Latviyanın "STC" şirkəti arasında əməkdaşlığa dair memorandumun imzalanması*
*26 noyabr 2024*




*Mərkəzin təşkilatçılığı ilə Asiya İnkişaf Bankı (AİB), Asiya İnkişaf Bankı İnstitutu (AİBİ) və Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı İnstitutu (CAREC Institute) ilə birgə Qlobal Beyin Mərkəzləri Forumu*
*15 noyabr 2024*



*Çində keçirilən "Bir Kəmər, Bir Yol" ölkələri üçün elektron hökumət və rəqəmsal ictimai xidmətlər üzrə beynəlxalq seminar*
*5 sentyabr 2025*

# Beynəlqxalq əməkdaşlıq
# **fotolarda**




*İİTKM-də BVF-nin "Makroiqtisadi təhlil və maliyyə proqramlaşdırması" təlimi*
*7-11 oktyabr 2024*




*"Azexport" portalının rəhbəri ABŞ-da "Şimal-Qərb Bağçılıq Sərgisi 2022" tədbirində*
*6 dekabr 2022*



*İİTKM-də keçirilən "Qlobal Beyin Mərkəzləri Forumu"*
*16 noyabr 2024*



*İİTKM-də Macarıstanın Pannonia Universitetinin nümayəndələri ilə görüş*
*17 fevral 2026*

# Beynəlqxalq əməkdaşlıq **fotolarda**




*Vyanada "Azərbaycan: Makroiqtisadi siyasət" mövzusunda təqdimat*
*8 oktyabr 2024*



*Çində Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) tərəfindən təşkil edilən "Rəqəmsal iqtisadiyyatın inkişafı" beynəlxalq seminarı*
*29 iyul 2025*

# Kommunikasiya fəaliyyəti

9

# Kommunikasiya
## fəaliyyəti

Mərkəz fəaliyyəti dövründə Azərbaycanda həyata keçirilən iqtisadi islahatların yerli və beynəlxalq səviyyədə sistemli kommunikasiyasını təmin edib.

**27**

**RƏQƏMSAL RESURS**



27 rəqəmsal resurs vasitəsilə iqtisadi siyasət qərarları, islahat tədbirləri və nəticələr barədə müntəzəm məlumatlar yayılıb.

Kommunikasiya prosesi yalnız məlumatlandırma ilə məhdudlaşmayıb, müxtəlif hədəf qruplarından daxil olan rəy və təkliflər təhlil edilərək islahat gündəliyinin təkmilləşdirilməsində istifadə olunub.

### KİV İLƏ ƏMƏKDAŞLIQ

Mərkəzin əməkdaşları mütəmadi olaraq islahatların işıqlandırılması məqsədilə mediada analitik şərhlərlə çıxış edir, müxtəlif teleradio proqramlarına və debatlara qatılır. Bunun üçün yerli və beynəxalq media ilə sıx əməkdaşlıq qurulub.

### SOSİAL MEDİA HESABLARI

Mərkəz ənənəvi və rəqəmsal media resurslarında islahatların kommunikasiyasını çoxşaxəli həyata keçirir. Mərkəz aktiv şəkildə "Facebook" platformasında təmsil olunur (6 hesab).

"Instagram" üzrə 4, "LinkedIn" üzrə 3, "X" üzrə 2, "Telegram", "YouTube" və "WhatsApp" platformalarının hər biri üzrə 1 hesab fəaliyyət göstərir.

Təkcə "YouTube" kanalında 2600-ə yaxın video yerləşdirilib ki, bunlar mətbuata verilən müsahibələr, sorğulara cavablar, videoicmallar və digər istiqamətləri əhatə edir.

### MEDİA LAYİHƏLƏRİ

**"Real islahat"**

İİTKM-in Real TV ilə birgə layihəsidir. Layihənin məqsədi ölkədə həyata keçirilən iqtisadi islahatlar, dövlətin sosial-iqtisadi siyasəti, o cümlədən Prezident İlham Əliyevin müvafiq fərmanları və sərəncamları ilə təsdiqlənmiş strategiyalar, dövlət proqramları və digər mövzular barədə ictimaiyyəti məlumatlandırmaqdır.

**"Made in Azerbaijan"**

İİTKM-in "Azad Azərbaycan" televiziyası ilə birgə hazırladığı "Made in Azerbaijan" layihəsi "www.azexport.az" internet portalı vasitəsilə görülən işlər, Azərbaycanın ixrac statistikası və "Made in Azerbaijan" brendinin tanıdılması barədə ictimaiyyətə məlumatlar təqdim edib.

# İslahatların kommunikasiyası **fotolarda**



*2025-ci ilin yekunlarına dair mətbuat konfransı*
*22 yanvar 2026*



*İİTKM-in icraçı direktoru Vüsal Qasımlının Real TV-nin "Mirşahinin vaxtı" verilişinə müsahibəsi*
*5 noyabr 2025*




*Real TV-də "Real İslahat" verilişinin çəkilişi*
*15 noyabr 2023*




*"İctimaiyyətlə əlaqələrin əsasları" kitabının təqdimat mərasimi*
*15 iyul 2025*

# İslahatların kommunikasiyası **fotolarda**



*Şuşa şəhərində jurnalistlər üçün təşkil edilən yay məktəbi*
*17-18 iyun 2022*




*"Anewz" telekanalına müsahibə*
*14 fevral 2025*



*İİTKM və BDU arasında əməkdaşlığa dair Memorandumun imzalanması mərasimi*
*15 iyul 2025*




*Zəfər gününə həsr olunmuş konfrans*
*3 noyabr 2022*

# İslahatların kommunikasiyası **fotolarda**




*COP29 çərçivəvəsində “Real İslahat” verilişinin xüsusi buraxılışı*
*22 noyabr 2024*




*Şuşa şəhərində jurnalistlər üçün təşkil edilən yay məktəbi*
*17-18 iyun 2022*

# İnsan kapitalı

10

# İnsan **kapitalı**

Mərkəzdə 50 əməkdaş fəaliyyət göstərir. Onlardan biri professor, dörd əməkdaş elmlər doktoru, 20 nəfər fəlsəfə doktorudur.

Digər əməkdaşların əksəriyyəti doktorantura, ikinci təhsil və magistr pilləsində təhsil alırlar. Kollektivdə gənclərin sayı üstünlük təşkil edir.

**1 PROFESSOR**

**4 ELMLƏR DOKTORU**

**20 FƏLSƏFƏ DOKTORU**



## ƏMƏKDAŞLARIN ELMİ-TƏDQİQAT FƏALİYYƏTİ

Mərkəzin əməkdaşlarının “Scopus” və “Web of Scienence” bazaları başda olmaqla, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan nüfuzlu jurnallarda hər il onlarla məqaləsi çap edilib.

## BEYNƏLXALQ MƏTBUATDA MƏQALƏLƏR

Azərbaycanda aparılan islahat prosesi ilə bağlı həm də beynəlxalq müstəvidə təşviqat işi aparılır. Mərkəzin əməkdaşlarının nüfuzlu “Forbes” (05.12.2016), “Reuters”, “BBC”, “Emerging Europe”, “Digital Age”, “moscow-baku.ru”, “Milliyet”, “Hürriyet”, “Daily Sabah”, “The London Post”, "Connectivethink" və s. kimi nəşrlərdə müsahibə və məqalələri dərc olunub.

## “İSLAHAT KÖNÜLLÜLƏRİ”

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi fəaliyyətə başladığı gündən gənclərin könüllülük fəaliyyətinə dəstək göstərib.

Hazırda Mərkəzdə “İslahat Könüllüləri” təşkilatı fəaliyyət göstərir. Proqramın təsis edilməsində məqsəd gənclərin iqtisadi və analitik sahədəki mövcud potensialını üzə çıxarmaq və ondan səmərəli istifadə etmək, gələcək karyeralarını doğru yönəltmək və asudə vaxtlarını düzgün qiymətləndirmələrinə dəstək olmaqdır.

Könüllülər Mərkəzin innovativ layihələrində, eləcə də proqram təminatı, müxtəlif tədbirlərin təşkili, elmi araşdırmalar və tədqiqat işlərində yaxından iştirak edirlər.

10 il ərzində Mərkəzdə 800-ə yaxın könüllü fəaliyyət göstərib. Onlardan bir qismi nüfuzlu ali təhsil müəssisələrində təhsil alır, bir qismi dövlət və özəl sektorda, eləcə də beynəlxalq təşkilatlarda işləyirlər. Hazırda Mərkəzin əməkdaşlarının bir neçəsi könüllü fəaliyyəti müddətində seçilən gənclərdir.

**≈800 KÖNÜLLÜ**



# İnsan kapitalı **fotolarda**



*İİTKM-in şöbə müdiri Nicat Hacızadə Vyanada beynəlxalq təlim proqramında 22 dekabr 2025*



*Macarıstanlı tələbə Peter Balogh "Mathias Corvinus Collegium" Universitetinin təqaüd proqramı ilə İİTKM-də təcrübə proqramında 22 fevral 2024*




*İİTKM-in İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zənurə Talıbova Prezident İlham Əliyevin Fərmanı ilə təsis edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib*



*İİTKM-də monitorinq qrupunun müzakirəsi*
*12 mart 2026*



*İİTKM əməkdaşları Almaniyada statistika və rəqəmsal transformasiya sahələrində təcrübə keçiblər*
*01 oktyabr 2024*

# İnsan kapitalı **fotolarda**




*İslahat könüllüləri Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumunda*
*5 dekabr 2024*




*İİTKM-də Milli Məclisin deputatı Arzu Nağıyev ilə könüllülərin görüşü*
*05 noyabr 2025*




*İİTKM-in əməkdaşı Gültac Əhmədzadə-Tapdıqzadə Yüksəliş müsabiqəsinin final mərhələsində*
*18 iyul 2025*




*İİTKM-in İnsan resursları üzrə meneceri Mətanət Rəsulova Avstriyada BVF-nin "Resurslarla zəngin ölkələrdə makroiqtisadi idarəetmə" mövzusunda keçirilən seminarda*
*25 fevral 2020*

# İnsan kapitalı **fotolarda**



*İİTKM-də Beynəlxalq Valyuta Fondunun (BVF) dövlət qurumlarına təlimi*
*10 oktyabr 2024*




*“Enterprise Azerbaijan” portalının rəhbəri İsa Qasımov Qubada “Şəhərsalma sahəsində startap və innovasiya ideyalarının formalaşdırılması” mövzusunda təlim keçib*
*17 mart 2026*




*İİTKM əməkdaşları Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunan gənc əməkdaşlar üçün qurumlararası II "GİNius" intellektual yarışında*
*7 fevral 2026*




*İslahat könüllüləri Azərbaycan Könüllülərinin V Həmrəylik Forumunda*
*6 dekabr 2022*

# İnsan kapitalı **fotolarda**




*İslahat könüllüləri Azərbaycan Könüllülərinin VII Həmrəylik Forumunda*
*5 dekabr 2024*



*İslahat könüllüləri "İctimaiyyətlə əlaqələrin əsasları" dərs vəsaitinin təqdimat mərasimində*
*15 iyul 2025*

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az